Qanlı Yanvar

№ 03 (998) 18-24 yanvar 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Cənub Qaz Dəhlizinin inşası Avropanın enerji təhlükəsizliyinə növbəti töhfəmiz olacaqdır

**Yanvarın 15-də Prezident İlham Əliyev və ölkəmizdə işgüzar səfərdə olan Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə, eləcə də təkbətək görüşü olmuşdur.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Prezident İlham Əliyev bəyanatla çıxış edərək, dost ölkə ilə əlaqələrimizin çox uğurla inkişaf etdiyini söyləmiş, bu gün əlaqələrimizin müxtəlif aspektlərini geniş müzakirə edildiyini diqqətə çatdırmışdır. Dövlət başçısı qısa müddət ərzində Bolqarıstanın bu şərəfli missiyanı uğurla icra edəcəyinə əminliyini bildirmişdir. Qeyd etmişdir ki, Bolqarıstanın sədrliyi dövründə Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafı üçün yeni imkanlar yaradılacaq, xüsusilə hazırda Avropa İttifaqı ilə biz yeni saziş üzərində iş aparırıq və danışıqlar çox uğurla davam etdirilir".

Prezident İlham Əliyev eləcə də Azərbaycanın "Buta Airveys" şirkətinin Bakı-Sofiya marşrutu ilə aviareysinin təşkil edildiyini bildirmiş, bunun turizmin inkişafına təkan verəcəyini və Bolqarıstan-Azərbaycan dostluğunu daha da möhkəmləndirəcəyini vurğulamışdır. Həmçinin, İlham Əliyev Azərbaycanda Bolqarıstanın mədəniyyətinə, tarixinə, ədəbiyyatına çox böyük marağın olduğunu, Bakı Slavyan Universitetində bolqar dili və ədəbiyyatı mərkəzinin fəaliyyət göstərdiyini qeyd etmişdir.



* * *

**Sonra Baş nazir Boyko Borisov bəyanatla çıxış etmişdir.**

O, Dövlət başçısı İlham Əliyevə qonaqpərvərliyə görə təşəkkürünü və Trapezitsa kompleksi üçün görülən işlərə görə minnətdarlığını bildirmiş, Bolqarıstan Prezidenti cənab Radevin salamlarını çatdırmışdır. O, ticarət dövriyyəsinin artırılması istiqamətində konkret addımlar atılacağını, qarşılıqlı sərmayə qoyuluşu üçün də yaxşı imkanların olduğunu və bu istiqamətdə də işlərin görüləcəyini bildirmişdir.

O demişdir: " Bu gün danışıqlarımızın əsas mövzusu energetika sahəsi ilə bağlı idi. Bildiyiniz kimi, bu sahədə biz tərəfdaşıq. Azərbaycan və Bolqarıstan birlikdə digər ölkələrlə bərabər Cənub Qaz Dəhlizinin icrasını təmin edirlər. Azərbaycanın zəngin qaz yataqları vardır. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Cənub Qaz Dəhlizinin inşası Avropanın enerji təhlükəsizliyinə növbəti töhfəmiz olacaqdır. Hazırda Azərbaycan nefti bir çox Avropa ölkələrinin enerji təhlükəsizliyini təmin edir və yaxın gələcəkdə Azərbaycan qazı da eyni funksiyanı daşıyacaqdır. Cənub Qaz Dəhlizinin icrası uğurla gedir. "Şahdənz-2" layihəsinin icrası 99 faizə çatıbdır. "Şahdəniz-2" Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır. Eyni zamanda, bu il TANAP layihəsinin başa çatması nəzərdə tutulmuşdur. Bu layihənin icrası da 90 faizə çatıbdır. Bir neçə ildən sonra 1 milyard kubmetr Azərbaycan qazının Bolqarıstan ərazisinə nəql ediləcəyini nəzərə alaraq, biz bu gün cənab Baş nazirlə müvafiq qurumların rəhbərlərinə göstəriş vermişik ki, tezliklə Azərbaycan şirkəti SOCAR-ın Bolqarıstanda qazlaşdırma ilə bağlı məsələləri araşdırsınlar və imkanları haqqında məlumatlar versinlər.

Azərbaycan ölkə daxilində qazlaşdırmanı uğurla icra edir. Hazırda ölkəmizin 93 faizi qazlaşdırılıb və cari ilin sonuna qədər bu rəqəm 95 faizə çatacaqdır. Bununla paralel olaraq, digər ölkələrdə də SOCAR qazlaşdırma ilə bağlı investor kimi fəaliyyət göstərir. Albaniyanın qazlaşdırılması ilə bağlı müvafiq memorandum imzalanmışdır. Hesab edirəm ki, Bolqarıstanda da qazlaşdırma ilə bağlı SOCAR-ın investor kimi fəaliyyəti həm SOCAR üçün, həm Bolqarıstan istehlakçıları üçün önəmli hadisə ola bilər. Müvafiq göstərişlər verilmişdir və əminəm ki, danışıqlar tezliklə başlanacaq.

**Keçən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun Bakıda təntənəli açılışı olmuşdur. Bu dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsini yenidən tərtib edir. Artıq Bakı-Tbilisi-Qars dəmir yolu işləyir və məsafə baxımından Avropa və Asiya arasında ən qısa yoldur. Vaxt baxımından isə cəmi iki həftə ərzində Asiyadan Avropaya yüklər bu dəhliz vasitəsilə daşına bilər.**

Onu da qeyd etməliyəm ki, biz humanitar sahədə də əməkdaşlığımızı dərinləşdiririk. Azərbaycanda Bolqarıstanın mədəniyyətinə, tarixinə, ədəbiyyatına çox böyük maraq var. Bakı Slavyan Universitetində bolqar dili və ədəbiyyatı mərkəzi fəaliyyət göstərir. Əlbəttə ki, humanitar sahədəki əməkdaşlıq, insanlar arasındakı ünsiyyət bizim dostluğumuzu daha da möhkəmləndirir və möhkəmləndirəcəkdir.

Daha sonra Baş nazir Borisova Bolqarıstanın Avropa İttifaqına sədrliyi ilə bağlı təbriklərini çatdıran Prezident İlham Əliyev bunun Bolqarıstanın böyük uğuru və böyük məsuliyyəti olduğunu vurğulamış, qeyd etmişdir ki, Prezident İlham Əliyevin dediklərinin Bolqarıstan üçün böyük əhəmiyyəti var. "Bolqarıstan ərazisinin cəmi 3 faizi qazlaşdırılıb. Eyni zamanda, biz qeyd edə bilərik ki, son günlər, xüsusən də qış dövründə hava çirklənir, özü də səbəb sənaye istehsalı və avtonəqliyyat deyil, məişətdə odun və kömürün yanacaq kimi istifadə olunmasıdır. Biz istərdik, elə məişət yanacağından istifadə olunsun ki, ətraf mühitə zərər yetirilməsin.

SOCAR-ın dəstəyi və Azərbaycan qazının tədarükü sayəsində qonşu Gürcüstan qazlaşdırılıb. Biz çoxdandır ki, Bolqarıstanın qazlaşdırılması üçün iki variantın mövcudluğu barədə danışırıq. Ümid edirik ki, iyun ayında Yunanıstanda interkonnektorun tikintisi başlayacaq və iyulda Türkiyə ilə sərhəddə interkonnektor işə düşəcək. Qeyd etmək istərdim ki, hörmətli Prezident İlham Əliyevin xeyir-duası ilə bizim şirkətlə SOCAR arasında 1 milyard kubmetr həcmində Azərbaycan qazının sərfəli qiymətlərlə çatdırılması məsələsi həllini tapacaq. Əgər hörmətli Azərbaycan Prezidentinin dəstəyi ilə ölkəmizin qazlaşdırılmasına nail olsaq, biz əhalinin sosial cəhətdən zəif təbəqəsi üçün qazın təchizatı mümkünlüyünü təmin edə biləcəyik və onlar daha odundan, kömürdən istifadə etməyəcəklər. Hər iki ölkənin energetika və iqtisadiyyat nazirlərinin iştirakı ilə bu işin həyata keçirilməsi üçün miqdar və müddətə dair plan tətbiq ediləcək. Çünki Azərbaycan tərəfi qazın təchizatının ən sərfəli qiymətlərini təklif edir. Bir milyard kubmetr qaz Bolqarıstanda böyük sayda evləri məişət qazı ilə təmin edəcək.

Nəqliyyat dəhlizlərinə gəlincə, biz, həmçinin bunun inkişafı üçün öz dəmir yolu şəbəkələrimizi hazırlayırıq. Bu, həm Azərbaycan, həm Qazaxıstan, həm də Çinlə əlaqə deməkdir. Bu nəqliyyat qovşağı bizim dəmir yolu stansiyalarımıza, oradan isə bütün Avropa ölkələrinə çıxa bilər. Bizim "Berlin Prosesi"nə əsasən 8 nömrəli, 10 nömrəli nəqliyyat dəhlizlərinə dair birgə gördüyümüz işlər bu yolların Skopyeyə gəlib çatmasına imkan verəcək.

Mən Bolqarıstanla müqaviləni ratifikasiya edən makedoniyalı dostlarımızı təbrik etmək istərdim. Bu, çox vacib müqavilədir. Solonikidən şaxələnən avtomobil yolunda iki körpü mövcuddur - Vrusi və Vedeno-Sofiburkas körpüləri. Sofi-Soloniki avtomobil yolunun üçdə iki hissəsi işlək vəziyyətdədir və gələn il tam istifadəyə veriləcək.

Bolqarıstandan Azərbaycana əsasən kənd təsərrüfatı, iqtisadiyyat sahələrində məhsulların ixracı həyata keçirilir. Biz ümid edirik ki, bu imkanları genişləndirə bilərik. Əgər Azərbaycan qazının Bolqarıstana təchizatı baş tutarsa, biz bu əmtəə mübadiləsini tarazlaşdıra bilərik.

Bütün bu investisiyaların yatırılması, birbaşa nəqliyyatın mövcudluğu, - nəzərə alsaq ki, biz Bakıya təyyarə ilə üç saata gələ bilərik, - bizə iqtisadiyyatı, turizmi inkişaf etdirməyə rəvac verəcək və Azərbaycan turistlərinə Bolqarıstanın dağ və dəniz kurortlarına gəlmələrinə imkan yaradacaq. Bolqar turistləri sizin qədim diyarınıza böyük maraq göstərirlər. Bu, hər iki ölkə üçün faydalıdır".

# 2018-ci il də ölkəmiz üçün uğurlu olacaq

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclasda giriş nitqi söyləmişdir. O, demişdir:

- 2017-ci ildə ölkəmiz sürətlə və uğurla inkişaf etmişdir. Həyatımızın bütün sahələrində əldə edilmiş nəticələr ölkəmizin ümumi inkişafına böyük töhfə vermişdir. Azərbaycan xalqı 2017-ci ildə də sabitlik və təhlükəsizlik şəraitində yaşamışdır. Bu gün dünyanın müxtəlif yerlərində risklər, təhlükələr artır, qanlı münaqişələr, qarşıdurmalar geniş vüsət alır. Bir sözlə, dünyada risklər artmaqdadır və görünür ki, bu tendensiyalar hələ davam edəcək. Belə bir mənzərə ilə üzləşərək əlbəttə ki, dünya ictimaiyyəti narahatlıq hissi keçirir. Azərbaycanda isə sabitlik, təhlükəsizlik, normal həyat təmin edilir. Hesab edirəm ki, indiki dünyada mövcud olan mürəkkəb geosiyasi vəziyyəti nəzərə alaraq bizdə bu sahədə əldə edilmiş nəticələr yüksək qiymətə layiqdir.



Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, aksiomadır. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf da dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu dayanır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və eyni zamanda, bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır.

**Əminəm ki, 2018-ci ildə də Azərbaycanda bu müsbət meyillər daha da güclənəcək. Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir və xalq-iqtidar birliyi bu gün də göz qabağındadır. Bizim uğurlu siyasətimizin təməlində xalq tərəfindən göstərilən dəstək dayanır. Bu müsbət meyillərin gücləndirilməsi, əlbəttə ki, ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcəkdir.**

2017-ci ildə iqtisadi sahədə çox böyük uğurlar əldə edilibdir. Mən artıq demişəm, bir daha demək istəyirəm ki, 2017-ci il dərin iqtisadi islahatlar ilidir. Mən bu tezisi elə ilin əvvəlində bəyan etmişəm ki, 2017-ci il dərin iqtisadi islahatlar ili olmalıdır. Belə də oldu və bunu mötəbər beynəlxalq maliyyə qurumları da, mötəbər təşkilatlar da təsdiqləyir və qeyd edir. Həm Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda gedən proseslərə yüksək qiymət verirlər, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərarlaşıb. Bu, çox böyük göstəricidir, ilk növbədə onu göstərir ki, hətta iqtisadi cəhətdən o qədər də asan olmayan ildə də biz inkişaf edirik. Digər tərəfdən, dünya miqyasında 35-ci yeri tutmaq doğrudan da böyük nəticədir, böyük qələbədir. Biz uzun illərdir ki, MDB məkanında liderlik mövqeyimizi qoruyuruq və möhkəmləndiririk. Hesab edirəm ki, beynəlxalq iqtisadi birlik tərəfindən bizim iqtisadi islahatlarımıza verilən ən böyük qiymət məhz Davos Forumunun reytinqidir və bunun da əsası var. Çünki son illər ərzində ölkəmizdə aparılan quruculuq və inkişaf işləri, bax, bu nəticələrə gətirib çıxarıbdır.

Ölkə iqtisadiyyatı 2017-ci ildə artıb, bu, çox müsbət göstəricidir. Ümumi daxili məhsul az da olsa artmışdır. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz artıb və burada artım 2,5 faiz təşkil edir. Sənaye sahəsində qeyri-neft sektorumuz 3,6 faiz, kənd təsərrüfatı isə 4,1 faiz artıbdır. Bizim valyuta ehtiyatlarımız artıb. Keçən il ölkəmizdə bir çox önəmli infrastruktur və sosial layihələr icra edilmişdir. O layihələr böyük pul tələb edir. Buna baxmayaraq, 2017-ci ildə valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır və hazırda təxminən 42 milyard dollar təşkil edir. Ölkəmizin əhalisini nəzərə alaraq, hesab edirəm ki, adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya miqyasında ön yerlərdən birini tutur.

Ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. Bu da çox gözəl göstəricidir. Onu göstərir ki, həm yerli və həm də xarici investorlar ölkəmizə vəsait qoymaqda maraqlıdırlar. Bu, eyni zamanda, qeyd etdiyim sabitliyin təzahürüdür. Çünki indiki dünyada mövcud olan maliyyə və iqtisadi vəziyyətdə xarici ölkələrə vəsait qoymaq bir çox investorlar tərəfindən o qədər də məqbul sayılmır. Ancaq sabit olan ölkələrə və gözəl gələcəyi olan ölkələrə xaricdən investisiyalar qoyulur. Ona görə il ərzində təxminən 15 milyard dollar investisiyaları cəlb etmək hesab edirəm ki, böyük nailiyyətdir.

Bizim ixrac potensialımız artır. 2017-ci ildə ixrac 19 faiz artmışdır, qeyri-neft ixracımız isə 24 faiz artmışdır. Bu, görülən işlərin nəticəsidir. Əhalimiz artır. Hər il əhali ən azı 100 min nəfər artır. İstehlak artır, turistlərin sayı çoxalır. Keçən il 2016-cı ilə nisbətən 500 minə yaxın çox turist gəlmişdir. Bu da təbii ki, istehlakın artmasına gətirib çıxarır. Buna baxmayaraq, bizim qeyri-neft ixracımız, o cümlədən ərzaq məhsullarının ixracı sürətlə artır. İl ərzində qeyri-neft ixracının 24 faiz artması görülən işlərin nəticəsidir.

İdxal isə təqribən cəmi 1 faiz artmışdır və bu da təbiidir. Çünki, ilk növbədə, Azərbaycan öz daxili tələbatını daha böyük həcmdə daxili istehsal hesabına təmin edir, digər tərəfdən vətəndaşların alıcılıq qabiliyyəti artır. Beləliklə, idxalın sabit səviyyədə qalması hesab edirəm ki, çox böyük nəticəmizdir. Ticarət balansımızın müsbət saldosu isə 6,2 milyard dollardır. Əminəm ki, bu il və bundan sonrakı illərdə bizim saldomuz həmişə müsbət olacaq.

Bir sözlə, iqtisadi sahənin əsas göstəriciləri çox müsbətdir. Hesab edirəm ki, hər bir ölkə belə nəticələrlə fəxr edə bilər. Biz də fəxr edirik ki, 2017-ci ili belə gözəl nəticələrlə başa vurmuşuq.

**Regionların inkişafı daim diqqət mərkəzində olmuşdur. Keçən il mən 30-dan çox rayona səfər etmişəm. Bu səfərlər çərçivəsində həm yeni müəssisələrin açılışları qeyd olunmuşdur, yeni müəssisələrin təməli qoyulmuşdur, həm də bölgələrdə gedən vəziyyətlə bağlı mənə məruzələr edilmişdir.**

2017-ci ildə 221 min yeni iş yeri açılmışdır ki, onların 177 mini daimi iş yeridir. Bu, çox böyük göstəricidir. Hesab edirəm ki, son illər ərzində açılan iş yerlərinin sayına görə bu, rekord göstəricidir. Onu da qeyd etməliyəm ki, keçən il 47 min iş yeri bağlanmışdır. Bu da təbii prosesdir. Ancaq, eyni zamanda, biz ciddi təhlil aparmalıyıq, görməliyik ki, hansı səbəblər üzündən 47 min iş yeri bağlanmışdır. Ancaq bununla belə 177 min daimi iş yerinin açılması, 47 min iş yerinin bağlanması yenə də burada da müsbət saldonu təmin edir və beləliklə, ölkəmizdə işsizliyin aşağı səviyyədə saxlanması üçün yaxşı imkanlar yaradır. Qeyd etməliyəm ki, ilin yekunlarına görə Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Hesab edirəm ki, bu da dünya miqyasında ən yaxşı nəticələrdən biridir.

Keçən il infrastruktur layihələrinin icrası üçün böyük vəsait ayrılmışdır və bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Elektrik təchizatı yaxşılaşdırılmışdır, bir çox bölgələrdə yeni yarımstansiyalar işə düşmüşdür. Bizim sürətlə artan sənaye və kənd təsərrüfatı potensialımız tələb edir ki, elektrik təchizatının inkişafı daim diqqət mərkəzində olsun.

(ardı 3-cü səhifədə)

# Bakıda müasir avadanlıqlarla təchiz edilən yeni yarımstansiyalar istismara verildi

Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyalarının açılışında iştirak edib. Orijinal layihə əsasında inşa edilən yeni inzibati bina və 220 saylı yarımstansiya bir-biri ilə harmoniya yaratmaqla modern memarlıq üslubuna malikdir.

"Azərişıq" ASC-nin sədri Baba Rzayev görülən işlər barədə dövlətimizin başçısına məlumat vermişdir.

Bildirilmişdir ki, hazırda "Azərişıq"ın balansındakı bütün energetika qurğularının binaları, eləcə də ofis və yardımçı texniki binalar ən müasir standartlara uyğun inşa edilir. Yenidənqurmadan sonra istifadəyə verilən 220 saylı yarımstansiyanın ərazisində paralel olaraq meqapolislərin şəhərsalma prinsiplərinə müvafiq qaydada modern memarlıq üslubunda "Azərişıq" ASC-nin Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binası inşa olunub. Ofis binası ən müasir standartlara uyğundur. Yeni inzibati binada milli və beynəlxalq memarlıq ənənələri üzvi şəkildə bir-birini tamamlayır.



Sonra dövlətimizin başçısına yeni yarımstansiya barədə məlumat verilmişdir. Bildirilmişdir ki, 1954-cü ildə tikilən və istismar müddəti başa çatan 220 saylı yarımstansiya tamamilə köhnəlmişdi. Prezident İlham Əliyevin sərəncamlarına əsasən Bakı şəhərində həyata keçirilən infrastruktur layihələri, çoxmənzilli binaların tikintisi ilə əlaqədar həmin sosial obyektlərin dayanıqlı elektrik təchizatını təmin etmək üçün bir sıra yarımstansiyaların, o cümlədən 220 saylı yarımstansiyanın yerində qapalı tipli, müasir avadanlıqlarla təchiz edilən yeni yarımstansiya, həmçinin ərazidən səmərəli istifadə etməklə Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binası inşa olunub. Paytaxtın Xətai, Nəsimi, Nərimanov və Səbail rayonlarının böyük hissəsini, o cümlədən bir çox strateji obyektləri elektrik enerjisi ilə təchiz edən yeni yarımstansiya əsaslı şəkildə genişləndirilib. Bu energetika qurğusunun gücü iki dəfədən çox artırılaraq 100 meqavoltamperə çatdırılıb. Hazırda həmin yarımstansiya 100 mindən çox sakini əhatə edən 25 min abonenti, həmçinin perspektivdə yaradılacaq obyektləri də elektrik enerjisi ilə təchiz etmək gücündədir. Yeni yarımstansiyaya "Sahil" yarımstansiyasından 35 kilovoltluq kabel xətti çəkilib. Bununla da mühüm əhəmiyyət kəsb edən Bakının qovşaq yarımstansiyalarının 35 kilovoltluq elektrik təchizatı sxeminin formalaşması işi başa çatdırılıb.

Sonra Prezident İlham Əliyevə Bakı Rayon Elektrik Təchizatı və Satışı İdarəsinin yenidən qurulan 110/35/10 kilovoltluq "Yasamal-1" yarımstansiyası barədə məlumat verilmişdir. Bildirilmişdir ki, "Yasamal-1" yarımstansiyası Bakı şəhərində tikilən ilk 110 kilovoltluq yarımstansiyalardan biridir.

Yeni inşa olunan yaşayış binalarının artan güc tələbatını ödəmək, perspektiv inkişafa uyğun olaraq digər istehlakçıları dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün "Yasamal-1" yarımstansiyası tamamilə yenidən qurularaq gücü iki dəfədən çox artırılıb. Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə 110 kilovoltluq "Yasamal-1" yarımstansiyasını işə salmışdır.

Sonra dövlətimizin başçısına 35/10-6 kilovoltluq 120 saylı və Qobu qəsəbəsi ərazisində yeni inşa edilən 110/35/10 kilovoltluq "Qobu" yarımstansiyaları barədə məlumat verilmişdir.

Son illərdə bu ərazidə yaşayış massivlərinin sürətlə artması, o cümlədən Qobu, Güzdək, Aşağı Güzdək, Hökməli, Sulutəpə, Masazır, Müşfiq qəsəbələrinin və Xırdalan şəhərinin böyük bir hissəsinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi üçün bu yarımstansiyanın inşası zəruri idi. Yeni inşa edilmiş "Qobu" yarımstansiyasından çəkiləcək 35 kilovoltluq elektrik verilişi xətləri vasitəsilə "502" və "Hökməli" yarımstansiyalarının elektrik təchizatı təmin ediləcək.

Dövlətimizin başçısına "Azərişıq"ın elektrik təchizatı sxemi, 110 kilovoltluq "Bayramzadə" yarımstansiyası, Külək Elektrik Parkı və digər yenidənqurma layihələri barədə də məlumat verilmişdir.

# 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Bakı şəhəri, 10 yanvar 2018-ci il**

# Azərbaycanın qeyri-neft əmtəə ixracı 24 faiz artıb

"2017-ci ilin ilk 11 ayında keçən ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi 12 faiz artaraq 21,8 milyard ABŞ dolları təşkil edib, əmtəə ixracı isə 19 faiz artaraq 14 milyard ABŞ dollarını üstələyib".



Bunu yanvarın 10-da Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı maliyyə naziri Samir Şərifov deyib.

O, bildirib: "Məmnunedici hal kimi qeyri-neft əmtəə ixracının 24 faiz artmasını xüsusi qeyd etmək lazımdır. Bütövlükdə, ticarət hesabında 6 milyard ABŞ dollarından çox müsbət saldo yaranıb və nəticədə dövlətin məcmu valyuta ehtiyatları ilin əvvəlinə nisbətən 4,5 milyard ABŞ dolları və ya 13,3 faiz artıb".

Nazir qeyd edib ki, xarici şokların iqtisadiyyata mənfi təsirlərindən təkcə Azərbaycanda deyil, bütün region ölkələrində ən çox bank sektoru zərər çəkib. Lakin digər ölkələrdən fərqli olaraq, ölkəmizdə özəl kommersiya banklarında sığortalanmış əmanətlərə 2016-cı ildə xüsusi olaraq qəbul edilmiş Qanuna əsasən dövlət 100 faiz zəmanət verir. Bunun nəticəsində bank əmanətçilərinin mütləq əksəriyyəti zərərlərdən tam qorunub. Bu əsasda bank sektorunda sağlamlaşdırma tədbirləri nəticəsində fəaliyyəti dayandırılmış bir sıra banklarda qorunan əmanətlərin qaytarılması məqsədilə dövlət büdcəsindən Əmanətlərin Sığortalanması Fonduna 545 milyon manat məbləğində vəsait köçürülüb.

Samir Şərifov deyib: "2017-ci ilin dövlət büdcəsinin gəlirləri və xərcləri təsdiq olunmuş proqnoza qarşı 98 faiz səviyyəsində icra olunub və müvafiq olaraq 16 milyard 447 milyon manat və 17 milyard 588 milyon manat təşkil edib.

Büdcə proqnozu ilə nəzərdə tutulan mədaxil mənbələrindən 736 milyon manat az vəsait daxilolmasına baxmayaraq, gömrük daxilolmalarının 16 faiz və ya 359 milyon manat çox olması, əlavə həcmdə dövlət qısamüddətli istiqrazlarının daxili bazarda satılması və büdcə xərclərinin səmərəliliyinin artırılması hesabına büdcə təşkilatlarının təqdim etdikləri məxaric sifarişləri dövlət büdcəsinin təsdiq olunmuş xərcləri çərçivəsində tam icra olunub.

Dövlət büdcəsinin kəsiri təsdiq olunmuş yuxarı həddən 34 milyon manat az olub. İcmal büdcənin icrasında əldə edilmiş müsbət dinamika xüsusilə qeyd olunmalıdır. Belə ki, təsdiq olunmuş icmal büdcənin kəsiri 7,6 milyard manat və ya ÜDM-in 11,1 faizi səviyyəsində proqnozlaşdırılırdısa, ilin nəticələrinə əsasən həmin kəsir ÜDM-in 1,5 faizinədək daralaraq 1 milyard manat təşkil edib.

2017-ci ildə sosial sahənin prioritet qaydada maliyyələşdirilməsi məqsədilə 5 milyard 52 milyon manat və ya dövlət büdcəsi xərclərinin 28,7 faizi həcmində vəsait yönəldilib. 2018-ci il yanvarın 1-i vəziyyətinə 140 min müəllimin bilik və bacarıqlarının qiymətləndirilməsi başa çatdırılıb ki, bunun da 41 min nəfərdən çoxu 2017-ci ilin payına düşür.

Səhiyyə sisteminin idarə olunmasının təkmilləşdirilməsi və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi məqsədilə Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində 1800-dən çox müayinə, müalicə, diaqnostika, cərrahiyyə əməliyyatı və digər tibbi xidmətləri özündə birləşdirən icbari tibbi sığortanın tətbiqinə başlanılıb və 2017-ci il dövlət büdcəsindən bu məqsədə 36,0 milyon manat vəsait yönəldilib.

Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2017-ci ilin icmal və dövlət büdcələrindən üst-üstə 326,0 milyon manat, o cümlədən dövlət büdcəsindən 221,0 milyon manat, Dövlət Neft Fondunun büdcəsindən 105,0 milyon manat vəsait ayrılıb".

Nazirin sözlərinə görə, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli və sürətlə həyata keçirilməsi üçün müstəsna rola malik olan "ASAN xidmət"in maliyyə təminatı üçün 2017-ci ildə 45,0 milyon manat vəsait yönəldilib.

2017-ci ilin dövlət büdcəsinin vəsaiti hesabına investisiya xərclərinə 2 milyard 690 milyon manat vəsait yönəldilməklə, nəzərdə tutulan bütün layihələrin maliyyələşdirilməsi təmin edilib. Bu mənbədən elm, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 651,0 milyon manat, ölkənin əsas enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya infrastrukturlarının tikintisi və yenidən qurulması üçün 1 milyard 237 milyon manat vəsait ayrılıb.

Kənd təsərrüfatına dövlət dəstəyinin daha da artırılması, pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün və heyvandarlığın kompleks inkişafının genişləndirilməsi, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi üçün 2017-ci ilin dövlət və icmal büdcələrindən üst-üstə 581,0 milyon manat vəsait ayrılıb.

# Ötən il dövlət məşğulluğu tədbirləri hesabına 41 min 400 nəfər işaxtaran iş yeri ilə təmin olunub

Bunu yanvarın 10-da Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov deyib. Nazirin sözlərinə görə, Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, ötən il ərzində sosial məsuliyyətin bölgüsü çərçivəsində dövlət şirkətləri ilə birgə 15 min işçi ilə əmək müqaviləsinin müddəti uzadıldı, 7 min işaxtaranla yeni əmək müqaviləsi bağlandı, ictimai işlərin təşkili proqramı üzrə 19 min nəfər yerli icra hakimiyyətləri tərəfindən təmir və abadlıq işlərinə cəlb edildi. Bundan əlavə, regionlarda kənd təsərrüfatının müxtəlif sahələrinin sürətli inkişafı 200 min nəfərdən çox əmək resursunu istehsal prosesinə cəlb etməyə imkan verib. İl ərzində məşğulluq orqanları tərəfindən ümumilikdə 47 min 900 nəfər işlə təmin edilib, 1160 nəfər haqqı ödənilən ictimai işlərə, 3560 nəfər peşə hazırlığı kurslarına, 3120 nəfər müvəqqəti xarakterli işlərə cəlb olunub, 14 min 820 nəfərə isə işsizlik müavinəti təyin edilərək ödənildi.



Nazirin sözlərinə görə, aztəminatlı ailələrin aktiv məşğulluq proqramlarına cəlb olunmasını nəzərdə tutan özünüməşğulluq layihəsi çərçivəsində 76 şəhər və rayon üzrə 1172 ailə aktivlərlə təmin edilərək kiçik ailə təsərrüfatları yaradılıb. Müvafiq normativ hüquqi baza yaradılmaqla yeni fəaliyyətə başlayan işsizlikdən sığorta sistemi özünüməşğulluq proqramlarında vətəndaşların iştirakı imkanlarını cari ildə 6 dəfəyə yaxın artıracaq. Bu tədbirlər üçün İşsizlikdən Sığorta Fondunun büdcəsində 35,8 milyon manat vəsait nəzərdə tutulub.

Əmək bazarına 111 min nəfər gənc işçi qüvvəsinin daxil olduğu 2017-ci ildə də bu bazarın stabilliyi qorunub saxlanılıb. Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemində qeydiyyata alınmış əmək müqavilələrinin sayı ötən il 44 min 700 ədəd artıb.

S.Müslümov deyib: "Əmək bazarındakı müsbət meyillər məcburi dövlət sosial sığorta haqlarının artmasına imkan yaradıb. Qeyri-büdcə sektorundan daxil olan sosial sığorta haqlarının məbləği 2016-cı illə müqayisədə 10,8 faiz və ya 130 milyon manat artaraq 1 milyard 338 milyon manat olub və büdcə proqnozu 103 faiz icra edilib. Daxilolmaların səviyyəsi 3,4 milyard manatlıq pensiya və müavinət xərclərini vaxtında maliyyələşdirməyə imkan verib.

Ötən il aparılmış köklü islahatlar nəticəsində pensiya sistemi qeyri-sığorta elementlərindən əsasən təmizlənib, sığorta-pensiya sisteminin öhdəlikləri ilə dövlət büdcəsinin öhdəlikləri bir-birindən tamamilə ayrılıb, fərdi uçot sistemində "açıq hesab" prinsipi tətbiq olunub və işləyən pensiyaçılara hər 72 aydan bir fərdi hesablarında yığılmış vəsaitlərdən istifadə edərək pensiyalarını artırmaq imkanı verilib. Altı ay ərzində 17 min 430 nəfər işləyən pensiyaçı bu hüquqdan istifadə edib və onların aylıq pensiyasının artımı orta hesabla 146 manat olub ki, bu da hər ay onlara 2,5 milyon manat əlavə vəsaitin ödənilməsi deməkdir".

# Ötən il Heydər Əliyev adına Neft Emalı Zavodu 5,8 milyon ton xam neft emal edib

2017-ci ildə Heydər Əliyev adına Neft Emalı Zavodunda (NEZ) 5 milyon 810 min ton xam neft emal olunub.

Zavoddan bildirilib ki, Azərbaycanın təsdiq olunmuş yanacaq-enerji balansına müvafiq olaraq SOCAR-ın baş ofisi tərəfindən 2017-ci ildə NEZ-dən 6 milyon 9,2 min ton xam neft və "Qaradağ" QEZ-dən 24 min ton qaz benzinin, ümumilikdə 6 milyon 33,2 min ton xammalın emalı planlaşdırılmışdı. Faktiki olaraq, hesabat ilində zavod 5 milyon 810 min ton neft və 119,6 min ton kənardan daxil olan xammal, ümumilikdə isə 5 milyon 929,6 min ton xammal emal edib.

Keçən il "Azərenerji" ASC-ni soba mazutu məhsulu ilə təmin etmək üçün zavodda "mazut rejimi" tətbiq edilib. Bunun nəticəsində neftin faktiki emal dərinliyi 92 faiz təşkil edib. Buna baxmayaraq, 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə emal dərinliyi 2 faiz artıb.



**(əvvəli 1-ci səhifədə)**

Bölgələrdə sürətli qazlaşdırma işləri aparılır. Keçən ilin yekunlarına görə, ölkəmizin 93 faizi qazlaşdırılıb. Bu il dövlət büdcəmizdə qazlaşdırma üçün əlavə vəsait nəzərdə tutulur. Bu rəqəm daha da artacaq. Görülən tədbirlər nəticəsində 100 min hektardan çox sahə suvarılmağa başlanmışdır. Bu, çox böyük rəqəmdir. Əlbəttə ki, kənd təsərrüfatının inkişafına və kənd təsərrüfatı məhsullarının ixracına bunun çox böyük dəstəyi olacaq.

2017-ci ildə 1300 kilometr avtomobil yolu salınmışdır. Bu da çox böyük göstəricidir. 500-dən çox kəndə yeni yol salınmışdır.

İçməli su layihələri uğurla icra edilir. Bir çox şəhərlərin içməli su problemi keçən il öz həllini tapıbdır. Biz bütövlükdə əsas infrastruktur layihələrinin icrası istiqamətində qarşımızda duran hədəfə demək olar ki, çatırıq.

**Sosial infrastrukturla bağlı çox ciddi addımlar atılmışdır - 133 yeni məktəb tikilmişdir, 14 məktəb əsaslı təmir edilmişdir, 500-ə yaxın məktəbdə isə cari təmir aparılmışdır. Otuz tibb müəssisəsi tikilib və əsaslı təmir edilmişdir. İki Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir.**

Ünvanlı sosial yardım alan ailələrin sayı 116 minə bərabərdir. Bu, 400 mindən çox insanı əhatə edir. Orta hesabla hər ailəyə 150 manat sosial yardım göstərilir. Bu da bizim sosial siyasətimizin təzahürüdür.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu baxımdan 2017-ci il də əlamətdar il olmuşdur, 2300 ailə yeni evlərə, mənzillərə köçürülüb. Beləliklə, 12 mindən çox köçkün yeni evlərlə, mənzillərlə təmin edilibdir. Cocuq Mərcanlı kəndinin bərpası tarixi nailiyyətdir, indi 150 evdən ibarət gözəl qəsəbə yeni həyatını yaşayır. Eyni zamanda, 2017-ci ildə Şıxarx qəsəbəsində 1170 ailə üçün yeni şəhərcik salınıb. Bu da əlamətdar hadisədir.

Bizim prinsipial mövqeyimiz ədalətli mövqedir, beynəlxalq hüquqa əsaslanan mövqedir və daha çox beynəlxalq dəstək qazanan mövqedir. Bunu əks etdirən bir neçə önəmli hadisə olmuşdur. Onlardan biri Dağlıq Qarabağda separatist rejim tərəfindən keçirilmiş qanunsuz "referendum"un dünya ictimaiyyəti tərəfindən tanınmamasıdır. Həm qonşu ölkələr, həm Avropa ölkələri, Avropa İttifaqı, beynəlxalq təşkilatlar "referendum"un tanınmaması haqqında birmənalı şəkildə ciddi bəyanatlar vermişlər. Bu bəyanatlar bir daha onu göstərir ki, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu dəstək getdikcə daha da artır.

Bilirsiniz ki, ilin sonunda Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Zirvəsində qəbul edilmiş Bəyannamədə də "Şərq tərəfdaşlığı"na üzv olan ölkələrin ərazi bütövlüyü, suverenliyi Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəklənmişdir. Bu, işğalçı Ermənistana növbəti zərbə olmuşdur. Bununla yanaşı, təbiidir ki, biz hərbi gücümüzü də artırırıq. Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa biz onu da edirik. Yoxsul Ermənistandan fərqli olaraq, biz öz hesabımıza yaşayırıq, o cümlədən hərbi gücümüzü öz hesabımıza artırırıq. Ermənistandan fərqli olaraq heç kimdən dilənmirik, heç kimə yalvarmırıq, kredit üçün müraciət etmirik. Ona görə Azərbaycan ictimaiyyəti və düşmən bilməlidir ki, Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Yaxın tarix bunu göstərmişdir.

2017-ci ildə energetika sahəsində tarixi hadisələr baş vermişdir. Onlardan biri "Azəri-Çıraq-Günəşli" yatağı üzrə kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması məsələsidir. Bu, bizə imkan verəcək ki, bundan sonra uzun illər ərzində - ən azı 2050-ci ilə qədər hasilat səviyyəsi sabit qalsın. Bu, imkan verəcək ki, Azərbaycanın neft sektoruna xarici investorlar tərəfindən bundan sonra da böyük həcmdə sərmayə qoyulsun.

"Azəri-Çıraq-Günəşli" kontraktının müddətinin uzadılması bizə sərmayədən başqa digər önəmli dividendlər gətirir. İlk növbədə, SOCAR-ın payı 11 faizdən 25 faizə artırılır. Mənfəət neftinin 75 faizi Azərbaycan tərəfinə qalacaq. Deyə bilərəm ki, bu da gənc, müstəqil ölkə üçün xarici investorlarla neft sahəsində əldə edilmiş ən gözəl nəticədir. Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR layihənin operatoru kimi bu işdə digər tərəfdaşlarla birlikdə iştirak edəcək və kontraktın uzadılmasına görə, baxmayaraq ki, xarici investorlar on milyardlarla dollar sərmayə qoyacaqlar, ondan əlavə 3,6 milyard dollar səkkiz il ərzində bərabər hissələrlə bizə bonus kimi veriləcəkdir. Birinci tranş bizə bu il veriləcəkdir. Bax, belə qısa desəm, "Azəri-Çıraq-Günəşli"nin əsas əhəmiyyəti bundan ibarətdir.

Eyni zamanda, Cənub Qaz Dəhlizinin uğurlu icrası təmin edilmişdir. İlin əvvəlində üçüncü dəfə "Cənub Qaz Dəhlizi"nin Məşvərət Şurasının toplantısı Azərbaycanda keçirilmişdir. Bütün lazımi məsələlər müzakirə olundu və il ərzində layihənin icrası təmin edilmişdir. Son məlumata görə, "Şahdəniz-2" layihəsinin icrası 99 faizə çatıbdır, demək olar ki, yekunlaşıb. Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz kəməri 93 faiz icra edilib və TANAP layihəsinin icrası 90 faizə bərabərdir. Bu, artıq onu göstərir ki, Cənub Qaz Dəhlizi reallaşıb. TAP layihəsinə gəldikdə isə, orada da işlər demək olar ki, qrafik üzrə gedir. Bilirsiniz ki, TAP layihəsində Azərbaycan əsas paya malik deyil. Bizim orada 20 faiz payımız var, amma biz iştirak edirik. Mənə verilən məlumata görə, o layihənin icrası 60-62 faiz səviyyəsindədir.

Energetika sahəsində bu iki önəmli layihə ölkəmizin bundan sonra da uğurlu inkişafını təmin edəcək və bizə imkan verəcək ki, qeyri-neft sektorunun inkişafı ilə daha çox məşğul olaq.

Hesab edirəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı nəinki ölkəmiz üçün, bölgə üçün, dünya üçün önəmli hadisə olmuşdur. Uzunluğu 850 kilometrə yaxın olan dəmir yolunun 504 kilometri Azərbaycan ərazisində tikilib, bərpa edilib. Şimal-Cənub nəqliyyat dəhlizinin icrası istiqamətində önəmli addımlar atılmışdır. Azərbaycan öz üzərinə düşən vəzifələri icra edib, İran sərhədinə qədər dəmir yolunun tikintisini təmin edib, eyni zamanda, dəmir yolu körpüsünü də inşa edib. Bildiyiniz kimi, keçən il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmişdir. Bu qərar bir daha onu göstərir ki, biz öz tarixi, dini köklərimizə bağlıyıq. Nəinki ölkə ərazisində İslam həmrəyliyi təmin edilir, bütövlükdə bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Son önəmli tədbir - dekabrın axırında Bakıda beynəlxalq konfransın keçirilməsi və bu konfransda dünya liderlərinin təbrik məktubları, yüksək səviyyəli qonaqların iştirakı bir daha göstərir ki, Azərbaycan dünya miqyasında həm İslam həmrəyliyi işlərinin təşkili, eyni zamanda, multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkəyə çevrilir.

**Bir daha demək istəyirəm ki, 2017-ci il ölkəmiz üçün uğurlu olmuşdur, ölkəmiz daha da güclənmişdir və ölkəmiz gələcəyə nikbinliklə baxır. Əminəm ki, bu il də uğurlu il olacaqdır.**

* * * *

İclasda maliyyə naziri Samir Şərifov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev çıxış etmişlər. Daha sonra Prezident İlham Əliyev iclasda yekun nitqi söyləmişdir.

**Prezident İlham Əliyevin yekun nitqi**

- Əminəm ki, bu il ölkə iqtisadiyyatı öz inkişaf yolu ilə gedəcək. İl ərzində bir çox önəmli layihələrin icrası nəzərdə tutulur. Əlbəttə, biz çalışmalıyıq ki, 2018-ci ildə makroiqtisadi vəziyyət sabit olsun. Mən şübhə etmirəm ki, belə də olacaq. Makroiqtisadi sabitlik hər bir ölkə üçün önəmli amildir. Keçən ilin son aylarında makroiqtisadi vəziyyət sabitləşmişdir, inflyasiyanın səviyyəsi aşağı idi. Əminəm ki, bu müsbət meyillər 2018-ci ildə daha da güclənəcək. Manatın məzənnəsi sabitdir. Qeyd etdiyim kimi, 6,2 milyard dollar müsbət saldomuz makroiqtisadi sabitlik üçün çox önəmli amildir.

Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən, makroiqtisadi mühitə görə Azərbaycan dünya miqyasında 39-cu, MDB məkanında isə birinci yerdədir. Yəni, bu, Davosun qiymətləndirməsidir. Əlbəttə, çox əlamətdar haldır ki, beynəlxalq təşkilatlar Azərbaycanda makroiqtisadi vəziyyətlə bağlı görülmüş işlərə çox müsbət reaksiya verirlər və yüksək qiymətləndirirlər.

Biz çalışmalıyıq ki, Neft Fondunun gəlirlərini artıraq. Ümumiyyətlə, bizim valyuta ehtiyatlarımız, Dövlət Neft Fondunun valyuta ehtiyatları ildən-ilə artır. Əlbəttə, bu, bizə imkan verəcək ki, ölkə qarşısında duran önəmli layihələr üçün vəsait ayıraq və ölkəmizin iqtisadi dayanıqlılığını təmin edək. Valyuta ehtiyatlarının həcmi və artması bizə iqtisadi müstəqillik verir. Biz heç bir maliyyə qurumundan asılı deyilik. Biz kreditlər alırıq. Ancaq onu da qeyd etməliyəm ki, kreditlərin alınması ilə bağlı biz daha da ciddi siyasət aparmalıyıq. Hesab edirəm ki, bundan sonrakı illərdə dövlət xarici borcunun azaldılması istiqamətində işlər aparmalıdır. Bu gün də xarici borcumuz məqbul səviyyədədir. Dünya miqyasında biz xarici borcun səviyyəsinə görə müsbət mənada qabaqcıl ölkələrdənik. Ancaq mən qarşıya vəzifə qoymuşam, çalışmalıyıq ki, bundan sonra xarici borcu artırmayaq, əksinə, bunu azaldaq.

Valyuta ehtiyatlarımızın artırılması bizə iqtisadi müstəqillik verir. Qeyd etdiyim kimi, biz özümüz kreditlər veririk və xarici kreditləşmədən asılı deyilik. Hətta neftin qiymətinin çox aşağı səviyyədə olduğu bir vaxtda biz ölkə üçün strateji əhəmiyyət daşıyan Cənub Qaz Dəhlizinin maliyyələşməsində heç bir yubanmaya yol vermədik və demək olar ki, bu layihə artıq başa çatmaq üzrədir. Odur ki, valyuta ehtiyatlarımızın yüksək səviyyədə olması iqtisadi müstəqilliyi gücləndirir. Bu da öz növbəsində bizim siyasi müstəqilliyimizi möhkəmləndirir.

**Azərbaycan bu gün dünya miqyasında müstəqil siyasət aparan ölkələrdən biridir. Belə ölkələrin sayı çox deyil, xüsusilə əhali və ərazi baxımından böyük olmayan ölkələrə bu, o qədər də xas deyil. Biz isə müstəqillik yolu ilə gedirik və azad, müstəqil həyatımız bizim üçün hər şeydən üstündür. Əminəm ki, bu il sərmayə qoyuluşu əvvəlki ilin səviyyəsində olacaq. Qeyd etdiyim kimi, keçən il 14,6 milyard dollar sərmayə qoyulub. Əlbəttə ki, ilin əvvəlində dəqiq proqnoz vermək çətindir. Ancaq biz hesablamalar aparmışıq və təxminən 15 milyard dollar səviyyəsində sərmayə qoyuluşu gözlənilir.**

Qeyri-neft sektorunun inkişafı daim diqqət mərkəzindədir. Mən bu barədə dəfələrlə danışmışam və praktiki addımlar atılır. Sahibkarlara dövlət tərəfindən güzəştli kreditlərin verilməsi bu il davam etdiriləcək. Bu məqsədlər üçün 170 milyon manat kredit resursu təmin ediləcək.

Yeni iş yerlərinin yaradılması istiqamətində işlər davam etdiriləcək. Qeyd etdiyim kimi, ötən il bu sahədə çox əlamətdar il olmuşdur.



Ancaq bu, daimi proses olmalıdır. Çünki bəzi ölkələrdən fərqli olaraq Azərbaycanda əhali artır. Bu da çox müsbət haldır və eyni zamanda, ölkəmizdə gedən uğurlu proseslərin təzahürüdür. Çünki əhalinin artımı onu deməyə əsas verir ki, ölkə düzgün istiqamətdə inkişaf edir. Yəni, Azərbaycanda demoqrafik vəziyyət çox müsbətdir. Bu, bizim potensialımızı gücləndirir, eyni zamanda, daim qarşımızda vəzifələr - ilk növbədə, infrastrukturla, sosial infrastrukturla və iş yerlərinin yaradılması ilə bağlı vəzifələr qoyur.

Bu yaxınlarda başladığımız özünüməşğulluq proqramının da uğurlu icrası gözlənilir. Bu məqsədlər üçün 35 milyon manat vəsait nəzərdə tutulub və bu, təqribən 7 min ailənin büdcəsinə böyük dəstək olacaq. Özünüməşğulluq proqramının çox böyük gələcəyi var və biz bu proqramın icrası ilə bağlı əlavə tədbirlər görəcəyik.

Bu il yeni köçkün şəhərcikləri, qəsəbələri salınacaq. Bu il yeni mənzillərlə təmin ediləcək köçkünlərin sayı keçən illə müqayisədə təxminən iki dəfə artacaq. Əgər 2017-ci ildə 12 min insanı biz yeni mənzillərə, evlərə köçürmüşüksə, bu il ən azı 20 min köçkün yeni evlərə, mənzillərə köçürülməlidir. Bu rəqəm çox da ola bilər.

Sosial infrastruktur layihələrinin icrası ilə bağlı dövlət investisiya proqramında kifayət qədər vəsait var. Mən bəzi rəqəmləri səsləndirmək istəyirəm. Bölgələrdə modul tipli 137 məktəb tikiləcək. Beləliklə, hesab edirəm ki, bu məktəblər tikiləndən sonra ölkəmizdə qəzalı məktəb qalmamalıdır. Altı şəhərdə yeni mərkəzi rayon xəstəxanası istifadəyə veriləcək. Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan və Goranboy şəhərlərində xəstəxanalar açılacaq, Xırdalan, Qəbələ şəhərlərində və Füzuli rayonunda müasir xəstəxanaların tikintisi davam etdiriləcək. Dörd Olimpiya İdman Kompleksinin tikintisi nəzərdə tutulur. Onlardan ikisi bu il istifadəyə verilməlidir.

**Sənaye parklarının yaradılması istiqamətində praktiki addımlar atılır. Keçən il Neftçala Sənaye Məhəlləsi istifadəyə verilib. Hacıqabul, Masallı və Sabirabad sənaye məhəllələrinin yaradılması prosesi davam etdirilir.**

Mingəçevirdə Yüngül Sənaye Parkının ilk fabriklərinin açılışı bu il gözlənilir. Sumqayıt Kimya Sənaye Parkında isə işlər çox uğurla gedir. Keçən ilin sonunda dörd yeni müəssisənin açılışı oldu və üç müəssisənin təməli qoyuldu. Əminəm ki, onların istifadəyə verilməsi bu il, ya da ki, gələn ilin əvvəllərində nəzərdə tutulacaq. Beləliklə, Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin sayı 15-ə çatıb və qoyulan, qoyulacaq sərmayənin həcmi 2,7 milyard dollara bərabərdir. Bax, bu təşəbbüs görün nə qədər gözəl nəticə verir. 2,7 milyard dollar sərmayə qoyuluşu böyük rəqəmdir. Halbuki Sumqayıt Kimya Sənaye Parkının ərazisində hələ iki-üç il bundan əvvəl dağılmış binalar, çürümüş borular, infrastruktur - hamısı bərbad vəziyyətdə idi. Dövlət bu yükü öz üzərinə götürdü, vəsait ayırdı və bütün lazım olan infrastrukturu yaratdı. Digər sənaye parklarımızda da bu işi dövlət öz üzərinə götürür və götürməlidir.

Əminəm ki, 2018-ci il də sənaye inkişafı ilə bağlı əlamətdar il olacaq. On yeni xalça fabrikinin açılışı nəzərdə tutulur. Beləliklə, ilin sonuna qədər xalça fabriklərinin sayı 20-yə çatmalıdır. Əminəm ki, 2018-ci il də kənd təsərrüfatının inkişafı üçün uğurlu olacaqdır. Keçən il kənd təsərrüfatı 4,1 faiz artıbdır. Bu, yaxşı göstəricidir. Biz həm ərzaq təhlükəsizliyi məsələlərini həll edirik, həm də kənd təsərrüfatının bizim üçün ənənəvi olan texniki sahəsini inkişaf etdiririk. Qeyd etməliyəm ki, Davos Ümumdünya İqtisadi Forumu da ərzaq təhlükəsizliyi ilə bağlı hesablama aparıb. Ərzaq təhlükəsizliyi indeksinə görə Azərbaycan 57-ci yerdədir. Bu, yaxşı göstəricidir. Ərzaq təhlükəsizliyi ilə, xüsusilə taxılçılıqla bağlı əlavə tədbirlər görüləcək ki, biz keçən il olduğu kimi, bu il də idxaldan asılılığı azaldaq və ixracyönümlü məhsulların həcmi artsın.

Keçən il bölgələrdə pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirələr keçirilmişdir, bir neçə dövlət proqramı qəbul edilmişdir. Biz görürük ki, bu sahələrdə çox böyük inkişaf var. Bu sahələrə göstərilən diqqət həm iş yerlərinin yaradılmasına gətirib çıxarır, həm də ixrac potensialımızı artırır. Misal üçün, 2017-ci ildə 207 min ton, 2016-cı ildə 89 min ton, 2015-ci ildə isə 35 min ton pambıq yığılıbdır. Yəni, biz iki il ərzində pambıq istehsalını demək olar ki, səkkiz dəfə artırmışıq və 200 minə yaxın insan pambıqçılıq sahəsində çalışır, pul qazanır.

Baramaçılıq. 2015-ci ildə 200 kiloqram, 2016-cı ildə 70 ton, 2017-ci ildə 245 ton barama tədarük edilibdir. Keçən il 18 min hektarda fındıq bağları salınıb. Beləliklə, fındıq bağlarının sahəsi 55 min hektara çatıb və bizim hədəfimiz 80 min hektara çatdırmaqdır. Fındıqçılıq kənd təsərrüfatının inkişafı və ixrac imkanlarımızın genişləndirilməsi üçün önəmli yer tutacaq. Bu gün ixrac edilən kənd təsərrüfatı məhsulları arasında fındıqçılıq ikinci yerdədir. Fermerlər bu məhsulun ixracından 100 milyon dollardan çox vəsait əldə ediblər. Birinci yerdə pomidor ixracıdır. Bu sahəyə də çox böyük maraq və tələbat var. Keçən il 140 milyon dollar dəyərində pomidor ixrac edilibdir. İndi ölkəmizdə 400 hektardan böyük bir sahədə yeni istixana komplekslərinin yaradıldığını nəzərə alsaq, təsəvvür etmək olar ki, bizdə tərəvəz ixracı nə qədər artacaq. Çünki biz özümüzü tərəvəzlə çoxdan təmin etmişik.

Digər sahələrdə - sitrusçuluq, çayçılıq, çəltikçilik sahələrində də inkişaf var. Heyvandarlığa çox böyük diqqət göstərilir və bu il ölkəmizə minlərlə baş cins mal-qara gətiriləcək. Bilirəm ki, 40-dan çox aqroparkın arasında heyvandarlıq arqoparkları da önəmli yer tutur. Beləliklə, əminəm ki, biz yaxın gələcəkdə özümüzü ət və süd məhsulları ilə tam şəkildə təmin edəcəyik. Yeni kənd təsərrüfatı texnikasının alınması üçün 160 milyon manat vəsait nəzərdə tutulubdur.

Biz keçən il dörd ticarət nümayəndəliyi yaratmışıq, müxtəlif ölkələrə bir çox ixrac missiyaları göndərilibdir. Bunun da müsbət təsiri var. Bu ticarət nümayəndəliklərinin nəticələri elə olmalıdır ki, bizim ixracımız artsın.

**Bu il üç "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayacaq - Mingəçevir, İmişli və Şəki şəhərində. Beləliklə, "ASAN xidmət" mərkəzlərinin sayı 15-ə çatacaq. Eyni zamanda, mən göstəriş vermişəm ki, bu il beş şəhərdə "ASAN xidmət" mərkəzinin tikintisinə başlanılsın. Onlar yəqin ki, 2019-cu ildə istifadəyə veriləcək. Beləliklə, bir ildən sonra bizim 20 "ASAN xidmət" mərkəzimiz olacaq.**

Turizmin inkişafı ilə bağlı bu il də əlavə tədbirlər görüləcək. 2016-cı ildə xarici turistlərin gəlişi 24 faiz artmışdır, keçən il isə əlavə daha 20 faiz artım olmuşdur və rekord səviyyəyə çatmışdır. Ölkəmizə 2,7 milyon xarici vətəndaş gəlmişdir. Bu, çox müsbət haldır. Bunun səbəbləri var, - əlbəttə, mən bu barədə dəfələrlə danışmışam, - həm sabitlik, təhlükəsizlik, qonaqpərvərlik, müasir infrastruktur, tarixi abidələrimiz və turizm sahəsinə göstərilən dövlət dəstəyi və əminəm ki, eyni zamanda, beynəlxalq tədbirlər, beynəlxalq yarışlar turistləri ölkəmizə cəlb edir. Sevindirici hal ondan ibarətdir ki, keçən il turistlər bank kartları ilə 70 faiz çox pul xərcləmişlər. Turistlərin sayı cəmi 20 faiz artmışdır, amma xərclənən pul 70 faiz artmışdır. Bu da çox müsbət haldır. Turizm də ixracın bir növüdür, çünki turizm ölkəyə valyuta gətirir.

Qeyd etdiyim kimi, Cənub Qaz Dəhlizi ilə bağlı önəmli hadisələr gözlənilir. TANAP layihəsinin istifadəyə verilməsi gözlənilir. Nəqliyyat sahəsində Ələt Dəniz Ticarət Limanının birinci mərhələsinin başa çatması nəzərdə tutulur. Biz Ro-Ro terminalının açılışını qeyd etdik. Orada işlərin böyük əksəriyyəti demək olar ki, görülüb. Liman indi fəaliyyət göstərir. Əminəm ki, liman bu ilin birinci yarısında istifadəyə veriləcək. Beləliklə, Azərbaycan Xəzər hövzəsində ən böyük dəniz ticarət limanına sahib olacaq.

**Bu il Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyəti üçün çox önəmli il olacaq. Demək olar ki, Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətinin birinci ili olacaq. Mən qeyd etmişəm ki, bu yola böyük maraq var və artıq Bakı-Tbilisi-Qars Avrasiyanın nəqliyyat xəritəsini təzələyib və Azərbaycan bu sahəyə öz töhfəsini verib.**

Növbəti illərdə Şahdağ xizək kurortuna da dəmir yolunun çəkilişini təmin etmək bizim planlarımızdadır. Bu layihəni biz əlbəttə ki, Bakı-Yalama dəmir yolu ilə uzlaşdırmalıyıq. Çünki Şahdağa dəmir yolu ilə getmək üçün gərək o sürətli yol olsun. İndi Bakı-Yalama yolu o vəziyyətdə deyil ki, orada sürətli qatar işləyə bilsin. Bakı-Yalama yolu ilə Qusar rayonuna gedən dəmir yolu bir layihədə öz həllini tapacaq.

Ümumiyyətlə, demək istəyirəm ki, bu layihələr daxil olmaq şərtilə 2004-cü ildən bu ilin sonuna qədər Azərbaycanda 15 min kilometr avtomobil yolunun tikintisi təmin ediləcək. Bu, çox böyük rəqəmdir. Bu il bölgələrdə qazlaşdırma işlərinin aparılması üçün Dövlət Neft Şirkətinə dövlət büdcəsindən təxminən 100 milyon manat vəsait ayrılacaq. İstəyirəm ictimaiyyət onu bilsin ki, dövlət bu sahədə öz maliyyə imkanlarını təmin edir.

Bunlar görüləcək əsas işlərdir. Əminəm ki, 2018-ci il də ölkəmiz üçün uğurlu olacaq.

Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq. Ancaq onu da qeyd etməliyəm ki, indiki Azərbaycan Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edilə bilməz. Çünki o vaxt çətinliklər də olub, müstəqilliyimiz tam imkan vermirdi ki, Azərbaycan müstəqil siyasət aparsın. İqtisadi çətinliklərimiz olub, torpaq itkilərimiz də olub və bizim tarixi şəhərimiz olan İrəvan Ermənistana verilmişdir. Ona görə, biz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini çox düzgün təhlil etməliyik. Bu müsbət və çətin məqamları gizlətməməliyik. Amma bütün çətinliklərə və əlbəttə ki, bizim üçün sağalmayan yara olan İrəvanın Ermənistana verilməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir.

Bunu nəzərə alaraq mən 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edirəm. İl ərzində həm ölkəmizdə, həm xaricdə bununla əlaqədar bir çox tədbirlər keçiriləcəkdir.

# 20 YANVAR FACİƏSİ XALQIMIZA QARŞI TÖRƏDİLƏN ƏN AĞIR CİNAYƏTLƏRDƏN BİRİDİR

**1990-cı ilin 20 Yanvar faciəsi Azərbaycanın XX əsrdəki tarixində ən dəhşətli faciədir. Sovet hökumətinin, kommunist rejiminin öz xalqına qarşı bu qədər dəhşətli terror, təcavüz əməliyyatı buna qədər heç vaxt keçirilməmişdir.**

**Heydər Əliyev**

**Akademik**
**Ziyad SƏMƏDZADƏ**

...Respublikada vəziyyət getdikcə pisləşir, eyni zamanda, xalq açıq-aşkar görürdü ki, Vəzirov hər dəfə erməni millətçilərinə, mərkəzə güzəştə gedir. Ona görə Azərbaycan xalqı belə rəhbərdən xilas olmaq, öz sözünü demək üçün ayağa qalxdı…

Hamıya məlumdur ki, Sovet sistemində kommunist ideologiyasına uyğun gəlməyən fikirlər, baxışlar dəstəklənmir, əksinə, çox ciddi təzyiqlərə məruz qalırdı. O sistemin qurbanları içərisində Azərbaycan xalqının qeyrətli, ziyalı övladları çox olub. Ötən əsrin 50-ci illərinin ortalarında Sovet cəmiyyətində hakim partiya söz, fikir azadlığına münasibətini nisbətən yumşaltsa da, bütövlükdə, sistemin dayaqlarını sarsıtmağa yönəldilmiş hər bir tədbirə qarşı amansız mövqe tuturdu. Buna baxmayaraq, SSRİ iqtisadiyyatında mərhələlərlə baş verən uğursuzluqlar, hökumətin tez-tez təkrar olunan və sarsıntılarla müşayiət edilən tədbirləri Sovet sisteminin üç üzvü barədə fikirlərin geniş yayılmasına gətirib çıxarır, insanları azadlıq uğrunda mübarizəyə qalxmağa sövq edirdi.

Ötən əsrin 80-ci illərinin axırlarında və 90-cı illərinin əvvəllərində Azərbaycanda gündən-günə ağırlaşan siyasi, iqtisadi və sosial durum bu proseslərin inkişafı üçün əlverişli şərait yaradırdı, cəmiyyətdə ziyalı sözünə ehtiyac artırdı. Xalq çox çətin bir imtahan qarşısında idi. Təsadüfi adamların ürəyindən xalqa liderlik etmək istəyi keçirdi. Əlbəttə, bu, çox qorxulu bir meyil idi. Xalqa liderlik etmək qabiliyyətinə malik olmayanlar isə ziyalıları yaxına buraxmırdılar. Əlbəttə, ziyalıların da təşəbbüskarlığı yüksək deyildi. Xatırladaq ki, XX əsrin əvvəllərində Azərbaycanda böyük ziyalı ordusu yox idi, lakin ayrı-ayrı ziyalılar xalq üçün çox əhəmiyyətli, daha dəqiq desək, tarixi iş görürdülər. Elə bir Üzeyir bəy Azərbaycan xalqının milli mədəniyyətinin inkişafında nə qədər böyük rol oynamışdır. Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov o qədər nəhəng insanlardı ki, xalq onların arxasınca inamla və iftixarla gedə bilərdi. Çünki onlar millətin taleyi naminə ən çətin mübarizədən qorxmayan əsl vətəndaş idilər.

1988-ci ildə Qarabağ hadisələri başlananda ziyalılar xalq hərəkatına qoşulmuşdular və bir sıra taleyüklü məsələlərin müzakirəsində öz sözlərini deyirdilər. Lakin xalqla rəhbərlik arasında dərin uçurumun olduğu şəraitdə onların bəziləri öz mövqelərini müəyyən edə bilmədilər. Müxalifətin radikal mövqedən çıxış edən bəzi nümayəndələri ziyalıların əksəriyyətini, demək olar, qorxutmuşdu, amma başı bəlalar çəkmiş Azərbaycan xalqı daha ayılmışdı. Mərkəzin respublikaya sərt münasibəti isə dəyişmirdi ki, bu da respublikada onsuz da ağır olan ictimai-siyasi şəraiti daha da gərginləşdirirdi. Vəziyyətin daha da kəskinləşməsinə yol verməmək üçün xalq arasında nüfuz sahibi olan ziyalılar, qeydiyyatdan keçmiş Xalq Cəbhəsinin və digər təşkilatların nümayəndələri yaranmış vəziyyətdən çıxış yollarını müəyyən etmək üçün intensiv görüşlər keçirir, danışıqlar aparırdılar.

Amma ziyalılar çox böyük narahatlıq keçirirdilər. Azadlıq, müstəqillik sözləri o qədər tez-tez işlənirdi ki, onların öz əhəmiyyətini itirməsi təhlükəsi yaranırdı. **Rəhbərlik ilə xalq arasındakı boşluğu doldurmaq istiqamətində konkret addımlar atılmırdı. Xalq tələb edirdi ki, respublika rəhbərliyi Qarabağ probleminin həllində daha prinsipial mövqe tutsun, xalqdan ayrı düşməmək üçün onun qayğıları, arzuları ilə yaşasın.**

Tarixdən məlumdur ki, azadlıq siyasi mədəniyyətin yüksək olduğu şəraitdə daha az itki ilə əldə edilə bilər. Mərkəz çalışırdı müxalifətdən olan radikal qüvvələr hər hansı təxribata əl atsınlar ki, onlara qarşı cəza tədbirləri görməyə bəhanə olsun, Qarabağ problemi kölgədə qalsın. Ermənistanın silahlı birləşmələri Azərbaycan kəndlərinə basqın edir, dinc əhalini öldürür, amma mərkəz səsini çıxarmır, biganəlik göstərirdi. Gözləyirdi ki, Azərbaycan xalqı qəzəblənsin, hansısa bir hərəkətə əl atsın və bundan istifadə edən mərkəz öz gücünü işə salsın. Rəhbərlik və müxalifətdə olan qüvvələr bunu açıq-aşkar görə-görə düşmənə qarşı vahid cəbhədə birləşə bilmədilər. Bunlar tarixi faktlardır, o dövrün reallıqlarıdır. O vaxt çoxları başa düşmürdü ki, mərkəz Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinə, sözün əsl mənasında, ziyalıların rəhbərlik etməsini istəmir, elə ona görə də respublika rəhbərinin əli ilə xalq içərisində böyük nüfuzu olan ziyalıların siyasi meydandan uzaqlaşdırılması üçün bütün vasitələrdən istifadə edirdi.

1989-cu ilin son aylarında, 1990-cı illərin əvvəllərində respublikamızın hər yerində olduğu kimi, Bakının və onun ətraf kəndlərinin əhalisi də mərkəzin və erməni millətçilərinin xalqımıza qarşı xəyanətkar siyasətinə etiraz əlaməti olaraq küçələrə çıxmış, soyuğa, şaxtaya, yuxusuzluğa baxmayaraq, küçələrdə qurduqları maneələrdə (barrikadalarda) növbə çəkərək, Sovet qoşunlarının Bakı şəhərinə daxil olmasına yol verməmək üçün bütün vasitələrdən istifadə etməyə hazır idi. Nə qədər bəsit olsa da, əhali müdhiş haqsızlığa və ədalətsizliyə qarşı mübarizə üçün özünün bacardığı bu yolu seçmişdi. Qəzəblənmiş xalq azadlığa çıxmaq, vətən torpağını müdafiə etmək üçün hər cür əzaba dözməyə hazır idi. Əlbəttə, ayrı-ayrı radikal qüvvələr əhalinin sadəlövhlüyündən istifadə edib, onu ordunun, tankların, zirehli maşınların qabağına çıxarmaqda xüsusi məqsəd güdürdülər. Hətta müxtəlif yerlərdə əhaliyə silah paylanacağı da vəd edilmişdi.

Bakının Buzovna, Mərdəkan, Şüvəlan, Şağan, Qala, Bilgəh, Nardaran, Kürdəxanı, Maştağa, Binə, Keşlə, Zabrat, Hökməli, Türkan, Zirə, Bülbülə, Əmircan, Digah və başqa kəndlərinin əhalisi, xüsusən cavanlar dinc əhalinin üstünə göndərilən Sovet qoşunlarının qarşısını almaq məqsədilə Mərdəkan-Qala-Bakı magistralında keşik çəkirdilər. Onlar bilirdilər ki, Bakıya hərbi qüvvələr, əsasən Qala hərbi hava limanı vasitəsilə daxil ola bilər. Lakin vəziyyətin getdikcə gərgin xarakter aldığını görən kənd ağsaqqalları, ziyalılar həmin günlər evdə otura bilmirdilər, nizami qoşun qarşısına əliyalın, silahsız çıxan azadlıq aşiqlərini bu yoldan geri çəkməyə, onlara əsl həqiqəti başa salmağa, silahlı qoşun qarşısında durmağın mənasız olduğunu izah etməyə çalışırdılar.

Hadisələrin gedişindən hiss edilirdi ki, dinc əhaliyə qarşı SSRİ dövlətinin rəhbərliyi səviyyəsində qabaqcadan təxribatlar hazırlanmışdır. Amma vəziyyətin getdikcə gərginləşdiyi günlərdə Sov.İKP MK-nın yüksək vəzifəli nümayəndələrinin əhali ilə görüşlərində, habelə kütləvi informasiya vasitələri ilə verilən məlumatlarda bildirilirdi ki, Bakıya qoşunlar daxil olmayacaq. Əslində isə vəziyyət başqa cür idi. Bakıda fövqəladə vəziyyətin elan olunacağı və qadağa saatının qoyulacağı vaxt xalqdan gizlədilir, şəhərə qəfil hücum hazırlanırdı. Onu da qeyd etmək lazımdır ki, qoşunların Bakıya yeridilməsinə bir neçə gün qalmış hərbi komandanlıq Bakı şəhərindən hərbi qulluqçuların ailələrini SSRİ-nin müxtəlif regionlarına köçürməyə başlamışdı. Komandanlıq bu faktı onunla izah edirdi ki, guya həmin tədbir Bakıda ekstremist qüvvələrin basqınlarının qarşısını almaq üçün həyata keçirilir. Bu, ağ yalan idi. Reallıq sübut edirdi ki, o dövrdə Bakıda, eləcə də digər rayonlarda rusdilli əhalinin təhlükəsizliyi üçün heç bir qorxu yox idi.

1990-cı il yanvar ayının 19-da saat 19:27-də Azərbaycan televiziyası sıradan çıxarıldı. Bir neçə saat sonra Bakının hər yerindən güclü atəş səsləri gəlməyə başladı. Hamı həyəcan içərisindəydi. Sovet qoşunları hər tərəfdən şəhərə soxulurdu. Küçələrdə qan su yerinə axırdı. 40 min nəfərlik ordu əliyalın əhaliyə divan tuturdu. Azərbaycan Respublikasının Konstitusiyası tapdalanmışdı. Helsinki Yekun Aktını və Vyana müqaviləsini imzalamış SSRİ dövləti dinc əhaliyə qarşı görünməmiş bir cinayət işlədi.

Gözyaşardıcı qaz tətbiq edilir, dinc əhali atəşə tutulurdu. Əsgərlər hərbi maşınlardakı projektorlardan istifadə edərək qaranlıq yerlərdə atəşdən gizlənənləri, hətta təcili yardım maşınlarını gülləyə tuturdular.








Mərkəz əmin idi ki, Bakıda xalq susdurulsa, bütün respublikada sakitlik təmin ediləcək, beləliklə də SSRİ-nin Qafqazda qlobal mənafeləri tam müdafiə ediləcəkdir. Ancaq bu, yanlış fikir idi.

Əgər tarixə diqqət yetirsək, görərik ki, Bakı Azərbaycanda baş verən hadisələrdə, xüsusən xalqımızın azadlıq hərəkatında, yadellilərə qarşı aparılan mübarizədə daim mühüm rol oynamışdır. Məlum olduğu kimi, hələ XIX əsrin əvvəllərində çar Rusiyası Azərbaycana öz işğalçı qoşunlarını göndərərkən ilk növbədə Bakını tutmağı planlaşdırmışdı. Bakının strateji mövqeyi, burada neft yataqlarının mövcudluğu onu Rusiyanın işğalçılıq siyasətinin mühüm hədəfinə çevirmişdi. Gəncə, Şəki və Qarabağ işğal edildikdən sonra Bakı xanlığı üzərinə yürüş məhz belə bir məqsədlə həyata keçirilmişdi. Lakin rus generalı Bakını işğal edə bilmədi. O, İçərişəhərin qoşa qala qapılarının açarını təhvil aldığı yerdə Bakı xanı Hüseynqulu xanın əmisi uşaqları rus generalını öldürüb başını kəsdilər. Qoca tarix dönə-dönə sübut edir ki, Azərbaycanı qəsb etmək niyyətinə düşənlər nə qədər çox olsa da, arzusu gözündə qalanlar ondan da çox olub.

**1990-cı il yanvarın 20-də xalqımıza qarşı törədilən faciə Azərbaycan xalqını, Bakı əhalisini daha sıx birləşdirdi. O günlər minlərlə gənc Bakının komendantı Dubinyakın, digər Sovet zabitlərinin təhdidlərinə, təhqirlərinə, şaxtaya, yorğunluğa baxmayaraq, iki gün ərzində hava qaralana kimi Dağüstü parkda məzarlar qazmış, öz vətəndaşlıq borcunu yerinə yetirmişdilər.**

**Həmin dövrdə Buzovna, Mərdəkan, Bilgəh, Maştağa, Şüvəlan, Şağan, Qala, Pirşağı, Nardaran, Kürdəxanı, Binə, Binəqədi və başqa qəsəbə və kəndlərin əhalisi Bakını qırmızı qərənfillərə qərq etmişdi. Milyonlarca qərənfil şəhidlərimizin müqəddəs ruhu qarşısında torpağa baş əymişdi. Dünyada, yəqin, az xalq tapılar ki, ağır zəhmət hesabına becərdiyi hər hansı məhsuldan, əldə edəcəyi böyük miqdarda gəlirdən könüllü imtina etsin, xalqımızın azadlığı uğrunda şəhid olmuş övladlarının məzarı üzərinə bu qədər gül səpsin. Həmin günlərdə mən al qərənfillər içərisində alışıb-yanan Bakıya baxdıqca öz elimə, xalqıma, Bakı kəndlərinin öz sadəliyi ilə seçilən, son tikəsini belə dostla bölməyə hazır olan əli qabarlı, alnı açıq əhalisinə dərin minnətdarlıq hissi keçirirdim. Bu ənənə bu gün də davam edir və yəqin ki, əsrlər boyu davam edəcəkdir. Belə xalqa, belə camaata eşq olsun.**

**1990-cı ilin 20 yanvar tarixi Azərbaycan üçün həm də böyük imtahan idi. Respublikamızın bütün əhalisi kimi Bakı camaatı da bu imtahandan mərdliklə çıxdı. Azərbaycan xalqı bir daha sübut etdi ki, öz azadlığı uğrunda mübarizə aparmağı bacaran xalqdır və heç bir məhrumiyyət onu bu yoldan döndərə bilməz.**

1990-cı il yanvarın 22-də Azərbaycan Ali Sovetinin sessiyası çağırılmışdı. Hamımız böyük həyəcan içində idik və sessiyanın açılmasını səbirsizliklə gözləyirdik. Ali Sovetin Rəyasət Heyətinin sədri Elmira Qafarova sessiyanı açıq elan etdikdən sonra deputatlar 1990-cı il yanvarın 19-21-də Bakıda faciəli surətdə həlak olanların xatirəsini 1 dəqiqəlik sükutla yad etdilər. Gündəliyə aşağıdakı məsələlər daxil edildi:

1. Sessiyanın işinin səlahiyyətliliyi barədə;
2. SSRİ Daxili İşlər Nazirliyinin daxili qoşunları, Müdafiə Nazirliyinin və Dövlət Təhlükəsizliyi Komitəsinin hərbi hissələri tərəfindən dinc əhaliyə qarşı 1990-cı il yanvarın 10-dan başlanmış qanunsuz hərəkətlər barədə;
3. Bakıya qoşunların daxil olması ilə əlaqədar faciəli hadisələrin səbəblərini tədqiq etmək üçün deputat komissiyasının yaradılması barədə;
4. SSRİ xalqlarına, dünyanın bütün xalqlarına, parlamentlərinə müraciət barədə;
5. SSRİ Ali Soveti Rəyasət Heyətinin Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərmanının qüvvəsinin dayandırılması və şəhərdən qoşunların dərhal çıxarılması barədə.

Çox təəssüf ki, fövqəladə sessiyanın qəbul etdiyi qərarlar reallaşmadı, Mərkəzi Komitənin nə yanvar, nə mart, nə də iyun plenumlarında bunlara əhəmiyyət verilmədi.

1990-cı il yanvarın 22-də mənim sədrliyimlə Azərbaycan KP Mərkəzi Komitəsi aparatının ilk partiya təşkilatının yığıncağını keçirdik. Partiya təşkilatının həmin iclası respublikanın siyasi həyatında adi bir hadisə deyildi. Mən həmişə onu az da olsa, müsbət hadisə kimi qiymətləndirirəm. Çünki yığıncaqda biz Sov.İKP MK-ya, onun Azərbaycana təyin etdiyi rəhbərə öz mənfi münasibətimizi nümayiş etdirdik. Partiya iclası Əbdürrəhman Vəzirovun partiya sıralarından çıxarılması barədə qərar qəbul etdi.

İclasdan əvvəl isə MK-nın ikinci katibi Viktor Polyaniçkonun mənimlə çox ciddi söhbəti oldu. O, tədbiri təxirə salmağı məsləhət bildi. Amma iclas keçirildi.

Bir müddətdən sonra 19 yanvar gecəsi Moskvaya qaçmış Vəzirov mənə müraciətində onu partiyadan xaric etməməyimizi xahiş edirdi. Biz qərarımızı dəyişmədik. Həmin məktubu mən Vəzirovun fəaliyyətinin yoxlanılması ilə əlaqədar Mərkəzi Komitənin Plenimunun qərarına əsasən yaradılmış komissiyaya verdim, lakin nədənsə məni komissiyanın tərkibinə daxil etmədilər.

# Heydər Əliyevin 1990-cı ilin 20 Yanvarında Sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatı

**"Əziz həmvətənlərim, xanımlar və cənablar!**

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov.İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm. Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.



Bunlar üçün, ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla özü arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs, bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi.

Ancaq iş təkcə bununla bitmir. İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı, üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir? Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır.

Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır. Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# TOVUZ RAYONU REGİONAL İNKİŞAFA KONSEPTUAL BAXIŞ MÜSTƏVİSİNƏ

Tovuz rayonu ölkəmizin qərb bölgəsində yerləşən, əlverişli iqlim şəraitinə, münbit torpaq qurşağına, böyük aqrar potensialına malik rayonlardan biridir. Tovuzda dağlıq, dağətəyi və düzənlik relyefi mövcuddur ki, bu da rayonda iqtisadi strukturun çoxşaxəli qurulmasında mühüm rol oynayır. Rayon son 10-12 il ərzində elə dəyişib, elə abadlaşıb ki, bu yerlərə ayaq basanda adamın ürəyi açılır, hüsnünə heyranlıq hissləri baş qaldırır. Dövlət proqramlarının, regional layihələrin uğurla gerçəkləşməsi nəticəsində iqtisadiyyat davamlı və dayanıqlı inkişaf yoluna çıxarılıb, bir sıra sosial infrastruktur problemləri uğurla həllini tapıb. Bir sözlə, inkişaf və yüksəliş dinamikası bütün sahələrə sirayət edib. İqtisadi sistemdə yaradılan möhkəm təməl azad sahibkarlığın və liberal iqtisadiyyatın dolğun inkişafına geniş yol açıb, qeyri-neft sektorunun inkişafına rəvac verib, aqrar bölmədə ixtisaslaşma və diversifikasiya proseslərini dərinləşdirib. Bütün bunlar nəticədə əhalinin sosial vəziyyətində və yaşam tərzində öz parlaq təcəssümünü tapıb.

**RAYONUN TURİZM İMKANLARI BÖYÜKDÜR**

Tovuz turizm cəlbediciliyi baxımından unikal diyardır. Bunu şərtləndirən bəzi məqamlar vardır. Rayonun rəngarəng ağacları və biomüxtəlifliyi ilə seçilən 34 min hektar ərazisi meşəlikdir. Burada, həmçinin mənbəyini yüksək dağlardan götürən 4 çay mövcuddur: Zəyəmçay, Əsrikçay, Axıncaçay və Tovuzçay. Bu çayların yataqları boyu açılan füsunkar mənzərə ətrafı gözəlliklərə qərq edir. Azərbaycanın ən böyük çayı sayılan Kür Tovuzun aran hissəsini ikiyə bölüb keçir. Dağlıq ərazilərdə təxminən 300 bulaq vardır ki, bunların çoxunun kimyəvi tərkibi zəngindir. Bulaqların saf sularından burada yaşayan insanların çöhrəsinə, xarakterinə də hopub. Dillər əzbəri olan bu bulaqların bəzilərinin adını çəkək: Cökəli, Şərifli, Şırşır, Ağdaşlı, Qiblə…

Bulaqların ətrafı, xüsusən də yay mövsümündə qonaqlı-qaralı olur. Saf sulardan içə-içə bulaqların zümzüməsinə qulaq asmağın başqa ləzzəti var. Bu gözəllikləri seyr etməyə gələnlərin sayı ilbəil artır. Dağ çaylarında, əsasən alabalıqların (farel balığı) bir növü, qarabalıq, çanar dağ qızılbalıqları vardır. Məşhur Əsrik dərəsinin ecazkar gözəlliyinə baxmaqla doymaq olmur. Düz bir əsr öncə, Əsrik dərəsində turizm zonası yaradılmışdır. İndi burada mövsümi istirahət mərkəzləri, «Turist», «Maralbulağı», «Yurd yeri», «Şəfa suyu», «Əsgər bulağı», «Loğman», «Fındıqlıq» və s. ailəvi istirahət mərkəzləri fəaliyyət göstərir. Tovuzda ekoturizmin, dağ turizminin, kənd turizminin, aqroturizmin inkişaf etdirilməsi sahəsində də real imkanlar vardır. Rayonun Kirən və Çataq inzibati ərazi vahidlərində yerləşən yaşayış məntəqələri həmişə qonaqlı-qaralı olur, buraya təşrif buyuran turistlərin sayında hər il artım özünü göstərir. Tovuzda nə az, nə çox 80 kənddə turizmin yuxarıda adıçəkilən növlərini inkişaf etdirmək üçün yaxşı imkanlar mövcuddur. Həm də üstün cəhət budur ki, həmin yaşayış məntəqələrində turistlərə ekoloji cəhətdən təmiz, orqanik ərzaq məhsulları təqdim olunur. Əsrarəngiz təbiəti ilə yanaşı, Tovuz həm də tarixi mədəniyyət abidələri ilə zəngin olan diyardır. Tarixi abidələrin bir neçəsinin adını çəkək: Sultan körpüsü, Koroğlu qalası, Torpaq qalası, Avaztəpə qalası yerli və xarici turistlərin ən çox baş çəkdikləri yerlərdir. Rayonun dini abidələri olan Haçaqaya, Çinarlı piri, Qəribseyid, Aldədə ziyarətgahları, eləcə də Yanıqlı kəndində yerləşən XVI əsrə aid olan Şah Abbas məscidi inanclı insanların ən çox ziyarət etdikləri məkanlardır.

Rayonda turizmlə məşğul olan sahibkarıq subyektləri üçün münbit biznes mühiti yaradılıb. Məhz bu səbəbdən belə obyektlərin sayı hər il artır. Son illərdə yüksək standartlara cavab verən turizm obyektləri, otellər tikilib istifadəyə verilib. Şəhərin girişində, Tovuzçayın sahilində beşulduzlu «Ayan Palase», Əhmədabad kəndi ərazisində tikilib istifadəyə verilən «Su səsi» istirahət mərkəzi bu qəbildəndir. Sözügedən obyektlərdə turistlər üçün hər cür şərait və infrastruktur yaradılıb. Hazırda Tovuzda eyni vaxtda 200 turisti qəbul edəcək otel təsərrüfatı və 100-ə yaxın fərdi ev fəaliyyət göstərir.

**ƏKİN DÖVRİYYƏSİNDƏN KƏNARDA QALAN TORPAQ YOXDUR**

Torpağın münbitliyi, günəş şüalarının bolluğu, lazımi suvarma-meliorasiya infrastrukturunun yaradılması Tovuz rayonunda kənd təsərrüfatının inkişafını şərtləndirən amillərdir. Burada aqrar bölmədə çox işlər görülüb, lakin bundan sonra da çox işlərin görülməsinə ehtiyac vardır. Məhz bu səbəbdən hazırda rayon ərazisində əkin dövriyyəsinə daxil edilməyən torpaq sahəsi qalmayıb. Həm də təkcə bununla iş bitmir. Tovuzda kənd təsərrüfatında yüksək məhsuldarlıq qazanılır. Bu isə, hər şeydən öncə, aqrotexniki tədbirlərin optimal müddətlərdə və düzgün aparılması ilə bağlıdır. Başqa bir cəhət suvarma və meliorativ işlərin vaxtlı-vaxtında aparılmasıdır. Tovuzda məhz bu amilə böyük diqqət yetirilir. Tikintisinə 1986-cı ildə başlanan, 1992-ci ildə dayandırılan, Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə 2006-cı ildən tikintisi davam etdirilən Tovuzçay su anbarı nəhayət tikilib ərsəyə gətirildi və 2017-ci ildə cənab prezidentin iştirakı ilə açılışı gerçəkləşdi. Bununla Tovuz rayonunun kənd təsərrüfatında keyfiyyətcə yeni mərhələ başlandı. Bundan sonra Ağdağ ərazisini fasiləsiz suvarma suyu ilə təmin etmək məqsədilə Tovuzçay su anbarı üzərində nasos stansiyası quraşdırıldı. Hazırda həmin ərazi, eyni zamanda, digər yaşayış məntəqələrinə su verilməsi üçün ikipilləli nasos stansiyasında tikinti başa çatdırılıb.

Ölkə Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının prioritet mövqeyə çıxarılması istiqamətində qəbul etdiyi qərarlar, islahat proqramları fonunda Tovuz rayonu da öz yerini və rolunu müəyyən edə bilmişdir. Respublikamızın bütün bölgələrində olduğu kimi, Tovuzda da aqroparkların tikintisi aparılır. Ceyrançöl massivində 550 hektar torpaq sahəsində yem bitkilərinin əkininə hazırlıq işləri görülür. Elə həmin ərazidə 1000 başlıq heyvandarlıq kompleksi tikilir. Rayonda soyuducu anbarlarının sayı artır. 2017-ci ildə təsərrüfatlara lizinq yolu ilə 19 ədəd təzə traktor ayrılıb və bununla əkin traktorlarının sayı 122 ədədə çatdırılıb. Keçən ildən başlayaraq kənd təsərrüfatının ənənəvi sahələrində ciddi dönüş baş verib. Belə ki, ötən il 6870 kq barama tədarük edilib ki, bu da 2016-cı illə müqayisədə 4,4 dəfə çoxdur. Kümçilərə 32881 manat subsidiya verilib. Bu il barama istehsalını 10000 kiloqrama çatdırmaq hədəf götürülüb. Baramaçılıqda yem bazasını möhkəmləndirmək üçün yerli və xarici tinglər hesabına tut plantasiyalarının salınması davam etdirilir.

Ötən il tütün sahələrinin həcmi əvvəlki ilə nisbətən 2, 5 dəfə artırılaraq 50 hektara çatdırılıb və mövsümi işlərə 200 nəfər işçi cəlb olunub. 2017-ci ildə əvvəlki illə müqayisədə bütün məhsul növləri üzrə məhsuldarlıq xeyli artıb. Günəbaxan istehsalında 55,8 faiz, kartof istehsalında 5,6 faiz, tərəvəz istehsalında 1,7 faiz, tütün istehsalında 12,5 dəfə, şəkər çuğunduru istehsalında isə 2,8 dəfə artım baş verib.



2018-ci ilin məhsulu üçün 19680 hektar sahədə payızlıq bitkilərin səpini aparılmışdır ki, bunun 18639 hektarına buğda, 1041 hektarına arpa səpilmişdir. Tovuzda üzümçülüyün tarixi qədimdir. Sovet hakimiyyəti dağıldıqdan sonra üzüm bağları məhv edildi. Son illər tovuzlular öz sevimli məşğuliyyətlərinə yenidən qayıdıblar. 2016-cı ildə rayonda 9870 hektar üzüm bağları olduğu halda, 2017-ci ildə 9920 hektara çatdırılıb.

2017-ci ildə xarici bazarlara 15 milyon 540 min manat dəyərində 31 min 620 ton məhsul göndərilib. O cümlədən, 3 min 800 ton pomidor-xiyar, 6 min ton yerkökü, 20 min ton kartof, 1500 ton soğan, 320 ton meyvə ixrac edilib. İxrac strukturunda bostan və tərəvəz bitkiləri mühüm yer tutur ki, bunlar da istixana təsərrüfatlarında yetişdirilir. Rayonda 44 hektar istixana təsərrüfatı vardır və bunu 100 hektara çatdırmaq planlaşdırılır. 2017-ci ildə 3 yeni istixana təsərrüfatı tikilmiş, Abdulbəyli və Aşağı Quşçu kəndlərində 2 kompleksin tikintisi davam etdirilir. İxracdan ölkəyə valyuta gəlir ki, bu da rayon əhalisinin maddi durumunun yaxşılaşdırılmasına, həyat səviyyəsinin yüksəlməsinə öz müsbət təsirini göstərir.

**YÜKSƏLİŞİN TƏMƏLİNDƏ MÜKƏMMƏL İNFRASTRUKTUR DAYANIR**

Turizmin inkişafı, aqrar sektorun çiçəklənməsi, emal sənayesinin yaradılması və s. barədə Tovuzda görülən işlərdən, həyata keçirilən tədbirlərdən söhbət açdıq. Bütün bunlar isə bir məsələdən – infrastrukturun hansı səviyyədə olmasından asılıdır. Yol, elektrik enerjisi, təbii qaz və digər zəruri infrastruktur olmadan hansı investisiyaların cəlbindən, yaxud da təşviq edilməsindən danışmaq olar?

Son illər dövlət başçısının müvafiq sərəncamları əsasında rayonun yol təsərrüfatında ciddi irəliləyiş baş verib. 2017-ci ildə Qovlar-Əyyublu-Alakol yolu yenidən qurulub, qalan yollarda tikinti-quruculuq işləri davam etdirilir. Yaxın gələcəkdə rayonun bütün kəndləri və yaşayış məntəqələri asfaltlaşacaq. Rayon üzrə qazlaşma səviyyəsi 85 faiz təşkil edir, 46 ucqar yaşayış məntəqələrinin qazlaşması ilə bağlı müvafiq tədbirlər görülür. Tovuz rayonunu fasiləsiz elektrik enerjisi ilə təchiz etmək üçün bütün zəruri tədbirlər həyata keçirilib, içməli su və kanalizasiya sistemləri yenidən qurulur. Deməк istədiyimiz budur ki, diqqətdən kənar qalan sahə yoxdur. Tovuz hamının gözü qarşısında bir kənd rayonundan müasir tipli sənaye şəhərinə, turizm mərkəzinə, regional müstəvidə sayılıb-seçilən cəlbedici məkana çevrilir.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri,**
**Tovuz rayonu**

# Nəsillərə örnək görkəmli alim



***İnsan həyatı zirvələrin belinə dolanan yollara, cığırlara bənzəyir. Bu yollar yolçularından cəsarət, mətinlik tələb edir. Bəzən yolçular uzaqlarda görünən əlçatmaz, ünyetməz zirvələrə baxanda ümidlərini itirib geri dönürlər. Elə insanlar da var ki, bu yollar onları yormur, daim irəliyə, ucalığa səsləyir. İslam İbrahimov ucalığa, zirvələrə can atan insanlardandır.***

***İslam müəllimi yaxından tanıdığımız üçün onun haqqında yazmaq və təəssüratlarımızı bildirmək bizim üçün çox xoşdur. Bu gün onun haqqında yazarkən çox fikirləşmədik və belə qərara gəldik ki, 70 illik yubileyini qeyd etməyə hazırlaşdığımız iqtisad elmləri doktoru, professor, Əməkdar Kənd Təsərrüfatı İşçisi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Bakı Biznes Universitetində kafedra müdiri, ömrünü aqrar elmə, tədrisə, təlim-tərbiyəyə həsr etmiş istedadlı alim, böyük şəxsiyyət, əzmkar və fədakar insan İslam Hacı oğlu İbrahimovu çoxsaylı alimlər adından təbrik edərək, həyatda uğurlar və cansağlığı arzulayaq.***

***Maraqlı, mənalı həyat yolu keçən, zəngin elmi axtarışları ilə seçilən, çoxşaxəli fəaliyyəti ilə vətənə, xalqa iqtisadiyyat elminin incilərini bəxş edən təcrübəli mütəxəssis, görkəmli alim, xeyirxahlığı və sadəliyi ilə insanların qəlbinə yol açan gözəl insan İslam İbrahimov həyatının müdriklik dövrünü yaşayır.***

İbrahimov İslam Hacı oğlu 1948-ci il yanvar ayının 17-də Tovuz rayonunun Əlibəyli kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1955-ci ildə Əlibəyli kənd orta məktəbinə daxil olmuş və həmin məktəbin XI sinfini 1966-cı ildə bitirmişdir. Həmin ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) Maliyyə-statistika fakültəsinə daxil olmuş və həmin institutu 1970-ci ildə bitirmişdir. Ali məktəb illəri tələbə İslamın elmə yiyələnməsi ilə yanaşı, onun dünyagörüşünün formalaşmasına da böyük təsir göstərir. İnstitutda dərs əlaçısı olmuşdur. İntizamlı olmasına, yaxşı oxuduğuna və fəal tələbə olduğuna görə institutun rəhbərliyi onun oxuduğu orta məktəbə və valideynlərinə təşəkkür məktubları göndərmişdir.

İnstitutun təyinatına müvafiq olaraq, 1970-ci ilin iyul ayından Mərkəzi Statistika İdarəsinin Respublika Hesablama Mərkəzində iqtisadçı vəzifəsində çalışmışdır. 1970-ci ilin noyabrından 1971-ci ilin noyabrına qədər hərbi xidmətdə olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra yenidən Respublika Hesablama Mərkəzində iqtisadçı vəzifəsində işləmişdir.

İslam müəllimin elmə həvəsi və marağı onu yenidən təhsil aldığı instituta gətirmişdir. O, 1972-ci ilin sentyabrında istehsaldan ayrılmaqla D.Bünyadzadə adına Az.XTİ-nin aspiranturasına daxil olmuş və oranı 1975-ci ildə bitirmişdir. 1976-cı ilin may ayında dissertasiya müdafiə edərək, xalq təsərrüfatının iqtisadiyyatı (kənd təsərrüfatı), təşkili və planlaşdırılması ixtisası üzrə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

Aspiranturanı qurtardıqdan sonra Ədliyyə Nazirliyinin tələbi ilə Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda 1975-ci ilin sentyabrdan 1980-ci ilin noyabrınadək baş elmi işçi vəzifəsində işləmişdir.

Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda 1981-ci ilin mart ayından iyun ayınadək həmin institutda baş elmi işçi işləmişdir. 1981-ci ilin iyun ayından köçürmə yolu ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində əmək-haqqı idarəsinin rəisi, 1981-ci ilin oktyabrından 1986-cı ilin yanvar ayınadək Baş Plan İqtisad İdarəsinin rəisi vəzifəsində işləmişdir. Tapşırılan işə məsuliyyətlə yanaşması, əməksevərliyi, prinsipiallığı və təşkilatçılığı sayəsində ona daha məsul işlər tapşırılmışdır.

1983-2004-cü illərdə Kənd Təsərrüfatı Nazirliyinin kollegiya üzvü olmuşdur.

1986-cı ildən Dövlət Aqrar Sənaye Komitəsində Plan İqtisad İdarəsinin rəisinin müavini, şöbə rəisi, 1989-cu ilin fevralından isə Baş Plan İqtisad İdarəsində planlaşdırma idarəsinin rəisi, Baş idarənin rəisinin müavini vəzifəsində işləmişdir. 1994-cü ilin avqustundan 1995-ci ilin sentyabrınadək kənd təsərrüfatı nazirinin müavini, 1995-ci ilin sentyabr ayından isə Baş Aqrar İslahatlar idarəsində rəis, 2005-ci ildən 2013-cü il fevral ayına kimi Aqrar islahatlar, kənd ərazilərinin və sahibkarlığın inkişafı şöbəsinin müdiri vəzifəsində işləmişdir. 35 il nazirlikdə işləyərək, vicdanla xalqına, elinə xidmət etmişdir. 2004-cü ildən YAP-ın üzvüdür.

İ.H.İbrahimov bazar münasibətləri şəraitində aqrar sahənin, xüsusən kənd təsərrüfatının iqtisadiyyatı, idarə olunması və təşkili problemləri ilə əlaqədar materiallar hazırlanmasında bilavasitə iştirak etmiş, müxtəlif səviyyələrdə təşkil olunmuş 30-dan çox beynəlxalq və respublika yığıncaqlarında, elmi-praktiki konfranslarda və seminarlarda məruzələrlə çıxışlar etmişdir. O, aqrar iqtisadiyyatın aktual problemləri ilə əlaqədar tez-tez mətbuatda, radio və televiziya ilə çıxışlar edir.

İslam İbrahimov aqrar bölmənin bazar münasibətlərinə keçirilməsi və fəaliyyətinin tənzimlənməsi, istehsalın keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi yolları, forma və üsullarına dair praktiki əhəmiyyətə malik təkliflər və tövsiyələr hazırlanmasında xüsusi təşəbbüskarlıq göstərir. İşlədiyi dövrdə onun yeni təsərrüfatçılıq şəraitində iqtisadi münasibətlərin formalaşdırılması və sahibkarlığın inkişafına dair hazırladığı çoxsaylı təkliflərinə Nazirliyin Kollegiyasında baxılmış, bəyənilərək istifadə üçün müvafiq təşkilatlara göndərilmişdir.

İslam İbrahimov bazar münasibətləri şəraitində iqtisadi mexanizmin formalaşdırılması, xüsusən aqrar bölmədə islahatların həyata keçirilməsi ilə əlaqədar sahibkarlığın problemləri və iqtisadi məsələlərə dair normativ sənədlərin və proqramların hazırlanmasında fəal iştirak etmişdir. O, «Aqrar islahatının əsasları haqqında», «Sovxoz və kolxozların islahatı haqqında», «Kooperasiya haqqında», «Ailə-kəndli təsərrüfatı haqqında» qanun layihələrinin, bir sıra əsasnamə və qaydaların, «1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı»nın (1999), «Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı»nın (2001), «2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın (2003), «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın (2008) və digər dövlət əhəmiyyətli sənədlərin hazırlanmasında bilavasitə iştirak etmişdir.

O, aqrar islahatların həyata keçirilməsində fəal iştirakçı olmuş, dövlət mülkiyyətinin özəlləşdirilməsi ilə əlaqədar dəyərli təkliflər hazırlamış, direktiv orqanlarla müzakirəsində fəal iştirak etmişdir.

Ümumillli lider Heydər Əliyev nəzəri biliklərini təcrübədə tətbiq edən alimlərə yüksək qiymət verirdi. H.Əliyev bununla əlaqədar göstərmişdir ki, "Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur".

Öz taleyini elmlə bağlayan İslam İbrahimov müntəzəm olaraq elmi axtarışlarını davam etdirmiş, tələbkar və təcrübəli mütəxəssis kimi aqrar iqtisadiyyatın elmi-nəzəri məsələləri ilə məşğul olmuşdur. O, 1996-cı ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Doktorluq dissertasiyası aqrar bölmənin ən vacib probleminə - kənd təsərrüfatı məhsulları istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsinin iqtisadi problemlərinə həsr edilmişdir.

Mənalı ömrünü Azərbaycanın aqrar iqtisadiyyatına həsr edən İslam İbrahimov 2004-cü ildən professordur. Professor İ.İbrahimov 2005-ci ildən BMT-nin Beynəlxalq İnformasiya Akademiyasının həqiqi üzvüdür.

İslam müəllim respublikamızda tanınmış, yüksək intellektual səviyyəli iqtisadçı kimi, mənalı və şərəfli ömür yolu keçmiş, özünün əməksevərliyi, təşkilatçılıq bacarığı və zəhməti nəticəsində böyük uğurlar qazanmağı bacarmışdır.

İ.İbrahimov Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyun tarixli sərəncamı ilə "Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə medalı" ilə təltif olunmuş, 2012-ci ilin 31 oktyabr tarixli sərəncamı ilə kənd təsərrüfatının inkişafında xidmətlərinə görə ona "Əməkdar Kənd Təsərrüfatı İşçisi" fəxri adı verilmişdir.

Bütün ömrünü elmə sərf edən görkəmli alim və ziyalı professor İslam İbrahimov uzun illər ərzində gərgin əməyi sayəsində aqrar iqtisadiyyatın müxtəlif aspektlərini əks etdirən problemləri dərindən, yüksək elmi səviyyədə təqdim etməklə Azərbaycan aqrar elminə böyük töhfələr vermişdir. İqtisad elmləri doktoru, professor İ.İbrahimovun 300-dən çox əsəri, o cümlədən 20-dən çox kitabı, monoqrafiyası və dərs vəsaiti dərc olunmuşdur.

O, «Əmək və məhsulun keyfiyyətinin yaxşılaşdırılması yolları» (1982); «Heyvandarlıqda keyfiyyət» (1985); «Bazar iqtisadiyyatı və qiymət» (1992); «Bazar iqtisadiyyatı şəraitində keyfiyyət və səmərəlilik» (1994); «Aqrar iqtisadiyyatın aktual problemləri» (2002); «Aqrar iqtisadiyyatın əsasları» (2003); «Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri" (2010); "Məhsuldar qüvvələrin yerləşdirilməsi" (2014); "Ətraf mühitin iqtisadiyyatı" (2015); "Aqrar sahənin iqtisadiyyatı" (2016); "Sənayedə investisiya və innovasiya fəaliyyəti" (2017); "Sənayenin təşkili və idarə edilməsi" (2018) və s. kitabların müəllifidir.

Professor 1995-2011-ci illərdə Yunanıstanda, Fransada, İtaliyada, Türkiyədə, Böyük Britaniyada, Almaniyada, ABŞ-da, Hollandiyada, İsraildə və Macarıstanda ezamiyyətdə olmuş, aqrar iqtisadiyyatın aktual məsələləri ilə əlaqədar beynəlxalq seminar və görüşlərdə çıxışlar etmişdir.

İslam İbrahimov fədakar alim olmaqla yanaşı, həm də səmimi, prinsipial, geniş ürəkli, həssas qəlbli, qayğıkeş, xeyirxah alim kimi gənc nəslə örnək ola biləcək bir insandır. İ.İbrahimov elmi kadrların hazırlanmasında fəal iştirak edir. Onun rəhbərliyi ilə 16 nəfər elmlər namizədi müdafiə etmişdir, o, 30-dan çox elmlər namizədi və elmlər doktorunun rəsmi opponenti olmuş və hazırda 5 nəfər dissertantın elmi rəhbəridir.

İ.İbrahimov Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun və Azərbaycan Dövlət Aqrar Universitetinin ixtisaslaşdırılmış müdafiə şurasının üzvü olmuşdur. Professor hazırda Azərbaycan Respublikasının Prezidenti yanında AAK-da İqtisadiyyat elmləri üzrə Ekspert Şurasının üzvüdür. O, həyatının ən gözəl dövrünü gənclərə həsr edərək, elmi-pedaqoji fəaliyyətlə məşğul olur və hazırda Bakı Biznes Universitetində kafedra müdiri vəzifəsində çalışır.

İslam İbrahimov sözə, şeirə bağlı insandır. O, doğulub boya-başa çatdığı Tovuzun Əlibəyli kəndinin adını özünə təxəllüs götürmüşdür. İ.İbrahimov (Əlibəyli) Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Nəcib poetik duyğuları, hissləri nəğmələşib, misralara çevrilib və onun «Sevirəm de...» (2000), «Unuda bilmirəm...» (2004), «Duyğulu anlarım...» (2011), "Sevgi duyğuları..." (2017) adlı şeir kitabları nəşr olunmuşdur. «Araz» Ali Əbədi mükafatı, «İlin vətənpərvər adamı», «Şərəf» və «Qızıl Qələm» mükafatı laureatıdır. Şeirlərinə bəstələnmiş mahnılar tanınmış müğənnilər tərəfindən oxunur.

İslam İbrahimov həm də publisist məqalələri ilə tanınır. Onun «Nizami poeziyasında kənd təsərrüfatı», «Səməd ürəklərdə yaşayır», «Zirvələr oğluyam deyən şair...» və s. məqalələri maraqla qarşılanmışdır. İslam müəllimi yubileyi münasibəti ilə təbrik edirik və ona Azərbaycanın aqrar iqtisadiyyatının güclənməsi uğrunda fəaliyyətində, həyatında, elmi-pedaqoji yaradıcılığında yeni-yeni nailiyyətlər, müvəffəqiyyətlər və can sağlığı arzulayırıq.

**Ziyad Səmədzadə,**
**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri,**
**Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik,**

**İbad Abbasov,**
**Bakı Biznes Universitetinin rektoru, i.e.d., professor**

# Sahibkarlar Konfederasiyası ilə MÜSİAD arasında əməkdaşlıq müqaviləsi imzalanıb

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) Azərbaycan şöbəsinin idarə heyəti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

ASK-dan bildiriblər ki, görüşdə iki təşkilatın gələcəkdə birgə əməkdaşlıq imkanları və digər maraq doğuran məsələlər müzakirə edilib.



Qurumun fəaliyyəti ilə bağlı məlumat verən Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin Azərbaycan şöbəsinin idarə heyətinin sədri Abdurrahman Uzun bildirib ki, dünyanın müxtəlif ölkələrində yeni şöbələrini açan MÜSİAD-ın Azərbaycan şöbəsi artıq 8 aydan çoxdur ki, Bakıda fəaliyyətə başlayıb. "Yaxın müddətdə Türkiyədə fərqli sahələrdə uğur qazanmış iş adamları Azərbaycana dəvət ediləcək. Məqsəd onların təcrübəsinin azərbaycanlı iş adamları ilə paylaşılmasıdır. Yerli iş adamları ilə birlikdə bazarı araşdırıb, yeniliklər əldə etmək naminə bir sıra səyahətlərin təşkili də nəzərdə tutulur. Bundan əlavə, MÜSİAD Türkiyədən və ya dünyanın başqa ölkələrindən Azərbaycana sərmayə qoymaq istəyən şirkətlərə dəstək olmağı planlaşdırır", - deyə A.Uzun bildirib.

ASK-ın prezidenti Məmməd Musayev bildirib ki, ölkəmizdə əlverişli biznes və investisiya mühiti yaradılıb. MÜSİAD və Azərbaycan Sahibkarlar Konfederasiyası birgə layihələr icra etsə, hər iki tərəfin iş adamları bundan faydalanar.

M.Musayev bu gün imzalanan əməkdaşlıq müqaviləsinin gələcəkdə hər iki tərəf üçün faydalı olacağını bildirib.

Azərbaycanda işəgötürənlər toplumunun könüllü üzvlük prinsipi əsasında fəaliyyət göstərən ASK və MÜSİAD bazar iqtisadiyyatı çərçivəsində sərbəst rəqabət, özəl mülkiyyət və sərbəst ticarət qanunları çərçivəsində, üzvlərinin iqtisadi fəaliyyət və biznes əlaqələri ilə bağlı olan haqq və mənfəətlərini inkişaf etdirmək məqsədilə fəaliyyət göstərirlər. Bu məqsədlə həyata keçirilən fəaliyyətlərdə daimi surətdə məlumat və təcrübə mübadiləsi aparmaq, həmçinin mümkün olan hər sahədə iki təşkilat arasında əməkdaşlıq əlaqələrini qurmaq müqavilənin əsas məqsədini təşkil edir.

# СРЕДСТВА ИНФОГРАФИЧЕСКОГО АНАЛИЗА АГРЕГИРОВАННЫХ ПОКАЗАТЕЛЕЙ МНОГОМЕРНЫХ ОБЪЕКТОВ И СИСТЕМ

Процесс принятия управленческих решений в современных условиях предполагает обработку и анализ большого объема разнородных данных, которые в разной степени характеризуют свойства объекта управления и внешней среды. Учитывая сегодняшний уровень доступности мониторинговой информации разного рода, невозможно представить синтез эффективных управленческих решений без современных методов и средств обработки информации, в том числе средств инфографического анализа и визуализации.

В качестве инструмента эффективного представления информации в це-лях обеспечения поддержки и повышения эффективности процесса принятия управленческих решений инфографирование имеет значительный потенциал как инструмент борьбы с информационными перегрузками менеджеров. Агрегированные показатели представляют собой обобщенные, синтетические измерители, объединяющие в себе многие частные, и вычисляемые посредством суммирования, группировки или других способов сведения частных показателей в обобщенные.

Целью исследования является сравнительный анализ методов и средств многомерного анализа комплексных агрегированных показателей многомерных объектов и выработка рекомендаций для ЛПР по выбору адекватного средства моделирования.

Аппарат радиальных метрических диаграмм. РМД задает - мерное метрическое пространство, в котором осуществляется оценивание объекта, где – число метрик $P_i$, $i=\overline{1,n}$, отображающихся в виде лучей диаграммы.



Рис. 1. Общий вид РМД

Аппарат нормированных диаграмм. НД представляет собой столбча-тую диаграмму метрик $P_i$, $i=\overline{1,n}$ по которым оценивается объект, причем ширина отдельного столбца численно равна соответствующему коэффициенту весомости $\alpha$ $i$-й метрики (рис. 2).



Рис. 2. Общий вид нормированной диаграммы



Рис. 3. Пример свертки радиальных метрических диаграмм

По аналогии с РМД, НД могут и призваны описывать многоуровневую иерархическую систему показателей (метрик), как показано на рис. 4.



Рис. 4. Пример свертки нормированных диаграмм

Сравнительный анализ РМД и НД. Описанные средства многомерного анализа агрегированных показателей применяются в задачах контроллинга, стратегического управления, в частности для анализа разрывов (GAP-анализа) [12, 13]. При этом анализируют значения площадей фигур, образуемых РМД ($S_{RMD}$ на рис. 1) и НД ($S_{ND}$ на рис. 2), максимально возможное значение площади диаграмм ($S^*_{RMD}$ на рис. 1 и $S^*_{ND}$ на рис. 2 соответственно), а также их разность или соотношение, которое и интерпретируют как собственно разрыв между желаемым и действительным состоянием объекта или системы.

Площадь фигуры, образуемой РМД, есть сумма площадей отдельных лепестков диаграммы:

$$S_{RMD} = \frac{1}{2} Sin \frac{2\pi}{n} \times$$
$$\times \left( p_1 p_2 + p_2 p_3 + \ldots + p_{n-1} p_n + p_n p_1 \right) =$$
$$= \frac{1}{2} Sin \frac{2\pi}{n} \left( p_1 p_n + \sum_{i=1}^{n-1} p_i p_{i+1} \right).$$

Очевидно, что модель РМД нелинейна, к тому же неинвариантна к по-рядку отображения метрик. При этом площадь идеальной РМД, т.е. диаграммы с идеальными значениями метрик, численно равна.

$$S^*_{RMD} = \frac{n}{2} Sin \frac{2\pi}{n} ,$$



Рис. 5. График зависимости площади идеальной РМД от количества метрик

Если интерпретировать разрыв $R$ как разницу между идеальной и текущей РМД

$$R = S^*_{RMD} - S_{RMD}$$

то величина $\frac{\partial R}{\partial p_i}$ характеризует чувствительность модели к изменению $i$ -й метрики и во многом определяет свойства модели.

В данном случае

$$\frac{\partial R}{\partial p_i} = \frac{\partial S^*_{RMD}}{\partial p_i} - \frac{\partial S_{RMD}}{\partial p_i} =$$
$$= -\frac{1}{2} Sin \frac{2\pi}{n} \left( p_{i-1} + p_{i+1} \right), \; i \neq 1, \; i \neq n,$$

т.е. чувствительность РМД зависит от общего количества метрик и от значений «соседних» метрик, что никак нельзя отнести к достоинствам модели.

Аналогичные выкладки для НД показывают несколько иные результаты. Площадь идеальной НД всегда равна единице. При этом площадь фигуры, образуемой НД, численно равна значению агрегированного показателя:

$$S_{ND} = P_{\Sigma} = \sum_{i=1}^{n} \alpha_i p_i \; .$$

Выражение для разрыва $R$ в этом случае выглядит следующим образом.

$$R = 1 - \sum^{n} \alpha_i p_i \; ,$$

а чувствительность $\frac{\partial R}{\partial p_i}$ модели однозначно определяется коэффициентом весомости:

$$\frac{\partial R}{\partial p_i} = -\alpha_i , \; i = \overline{1,n} ,$$

что свидетельствует о полном соответствии аналитического и геометрического смысла модели. Следует отметить, что это соответствие справедливо только для агрегированных показателей вида . Однако именно эта форма агрегирования или свертки используется чаще всего.

Кроме описанных графоаналитических функций, элементы диаграмм могут выступать функционалом в разного рода задачах оптимизации (например, [10]), что подтверждает их практическую значимость и расширяет диапазон применимости в задачах управления организационно-техническими системами.

Пример. Глобальная система бизнес-процессов организации может быть представлена 10 бизнес-процессами (БП) (табл. 1).

Таблица 1

Система БП организации

| $i$ | БП | Относительный к-т весомости $\alpha_i$ |
|---|---|---|
| 1 | система управления | 0,12 |
| 2 | маркетинг | 0,15 |
| 3 | финансы | 0,09 |

Иерархическая структура компонентов бизнес-процессов, их относительная эффективность, а также относительные коэффициенты весомости представлены в табл. 2.

Построим двухуровневые РМД и НД в соответствии с изложенными выше методиками. В табл. 3 сведены следующие характеристики полученных моделей: $n$ – число метрик в диаграмме; $P_{\Sigma} = \sum_{i=1}^{n} \alpha_i p_i$ – значение агрегированного показателя; $S_{RMD}$ и $S_{ND}$ – значения площадей радиальных метрических и нормированных диаграмм бизнес-процессов соответственно; $S^*_{RMD}$ и $S^*_{ND}$ – идеальные значения площадей радиальных метрических и нормированных диаграмм бизнес-процессов соответственно; $S_{RMD}/S^*_{RMD}$ и $S_{SN}/S^*_{SN}$ – отношения текущих и идеальных значений площадей для радиальных метрических и нормированных диаграмм бизнес-процессов соответственно; $R_{RMD} = S^*_{RMD} - S_{RMD}$ и $R_{ND} = S^*_{ND} - S_{ND}$ – значения разрывов для радиальных метрических и нормированных диаграмм бизнес-процессов соответственно.

Таблица 2

Иерархическая структура компонентов БП

| БП | Компоненты БП | Относительная эффективность компоненты $p_{ij}$ | Относительный к-т весомости компоненты $\alpha_{ij}$ |
|---|---|---|---|
| 1. Система управления | 2.1 Опыт, квалификация и кругозор руководства организации в управленческой деятельности | 0,9 | 0,16 |
| | 2.2 Общее мнение о топ-менеджерах организации как о партнерах в деловых кругах | 0,8 | 0,13 |
| | 2.3 Система стратегического планирования | 1 | 0,20 |
| | 2.4 Способность быстро реагировать на меняющуюся рыночную ситуацию | 0,8 | 0,20 |
| | 2.5 Уровень информационных систем | 0,8 | 0,16 |
| | 2.6 Степень организации функций управления | 0,8 | 0,15 |
| 2. Маркетинг | 3.1 Система организации маркетинга | 1 | 0,18 |
| | 3.2 Система исследования рынка | 0,9 | 0,18 |
| | 3.3 Ассортиментная политика | 0,8 | 0,16 |
| | 3.4 Ценовая политика | 0,8 | 0,16 |
| | 3.5 Коммуникационная политика | 0,7 | 0,16 |
| | 3.6 Распределительная политика | 0,8 | 0,16 |
| 3. Финансы | 7.1 Финансовая диагностика | 0,8 | 0,07 |
| | 7.2 Управление издержками | 0,9 | 0,10 |
| | 7.3 Планирование прибыли | 0,8 | 0,09 |
| | 7.4 Бюджетирование и контроль | 1 | 0,07 |
| | 7.5 Управление оборотными средствами | 0,8 | 0,12 |
| | 7.6 Управление основными средствами | 0,8 | 0,04 |
| | 7.7 Инвестиционный портфель | 0,8 | 0,14 |
| | 7.8 Структура капитала | 0,8 | 0,05 |
| | 7.9 Дивидендная политика | 0,8 | 0,04 |
| | 7.10 Ликвидность | 1 | 0,13 |
| | 7.11 Задолженность | 0,8 | 0,07 |
| | 7.12 Доступ предприятия к другим источникам средств | 0,8 | 0,08 |

Таблица 3

Характеристики инфографических моделей БП

| Модели БП | Характеристики модели | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | $n$ | $P_{\Sigma}$ | $S_{RMD}$ | $S^*_{RMD}$ | $S_{RMD}/S^*_{RMD}$ | $R_{RMD}$ | $S_{ND}$ | $S^*_{ND}$ | $S_{ND}/S^*_{ND}$ | $R_{ND}$ |
| 1 | 4 | 0,86 | 1,445 | 2 | 0,723 | 0,555 | 0,86 | 1 | 0,86 | 0,14 |
| 2 | 6 | 0,856 | 1,871 | 2,598 | 0,72 | 0,727 | 0,856 | 1 | 0,856 | 0,144 |
| 3 | 6 | 0,838 | 1,81 | 2,598 | 0,697 | 0,788 | 0,838 | 1 | 0,838 | 0,162 |
| 4 | 8 | 0,805 | 1,81 | 2,828 | 0,64 | 1,01 | 0,805 | 1 | 0,805 | 0,195 |
| 5 | 7 | 0,869 | 1,939 | 2,736 | 0,709 | 0,797 | 0,869 | 1 | 0,869 | 0,131 |
| 6 | 6 | 0,799 | 1,728 | 2,598 | 0,665 | 0,87 | 0,799 | 1 | 0,799 | 0,201 |
| 7 | 12 | 0,85 | 2,12 | 3 | 0,707 | 0,88 | 0,85 | 1 | 0,85 | 0,15 |
| 8 | 7 | 0,864 | 2,009 | 2,736 | 0,734 | 0,727 | 0,864 | 1 | 0,864 | 0,136 |
| 9 | 7 | 0,86 | 2,009 | 2,736 | 0,734 | 0,727 | 0,86 | 1 | 0,86 | 0,14 |
| 10 | 3 | 0,868 | 0,97 | 1,299 | 0,747 | 0,329 | 0,868 | 1 | 0,868 | 0,132 |
| Σ | 10 | 0,844 | 2,108 | 2,939 | 0,717 | 0,831 | 0,844 | 1 | 0,844 | 0,156 |

**Алиев Фарид Мубариз оглы,**
**студент-магистр гр. 667 логистика.**
**Национальный аэрокосмический**
**университет им. Н.Е. Жуковского «ХАИ»**



# Продукт «Выгодное страхование»

С января 2018 года ОАО «АтаСыгорта» представило своим клиентам новый продукт «Выгодное страхование». «Выгодное страхование» является страховым продуктом КАСКО и позволяет клиентам застраховать свои автомобили в полцены, и в результате сэкономить свои средства.

Так, во время заключения страхового договора, Страхователь, выплачивает только первую часть страхового взноса. Вторую часть Страхователь выплачивает лишь при осуществлении страховой выплаты за страховой случай, случившийся в течение страхового периода. Однако если, в течение страхового периода страховой случай не произошел, вторую часть страхового взноса Страхователь не уплачивает. Например: при страховке автомобиля стоимостью 10 000 АЗН с вычетом 100 АЗН, если клиент должен заплатить 400 АЗН страхового взноса, то уплачивает всего 200 АЗН (50%). Если в течение года страховой случай не произойдет, то оплачивать оставшуюся вторую часть страхового взноса не потребуется.

В страховое покрытие входят следующие риски:

1. Брошенные или упавшие предметы;
2. Противозаконные действия третьего лица;
3. Хищение, разбой, угон и ограбление;
4. Пожар и взрыв;
5. Стихийное бедствие;
6. Передвижение животных.

Особые условия продукта:

1. Представляntся только физическим лицам;
2. Любые физические лица обладающее правом вождения автомобилем на законных основаниях считаются застрахованными;
3. Представляется автомобилям произведенным после 2000 года, с рыночной стоимостью от 10 000 АЗН до 60 000 АЗН.
3. Распространяется на автомобили произведенные после 2000 года, с рыночной стоимостью от 10 000 АЗН до 60 000 АЗН.

Входящее в Группу Компаний «АтаХолдинг», «АтаСыгорта» функционирует в секторе страхования с 2004 года. Компания, обладая активами почти в 35 млн. манатов оказывает своим клиентам услуги по 28 видам страхования – 24 добровольного и 4 обязательного. «АтаСыгорта» также имеет лицензию на осуществление перестраховочной деятельности. Является основателем и членом Бюро по обязательному страхованию. В целом, в сеть обслуживания "АтаСыгорта" ОАО входят более 90 филиалов, представительств и офисов.

# General Mobile 6 - первая выгодная кампания нового года от Azercell

Azercell Telecom продолжает радовать своих абонентов уже с первых дней нового года. Компания запускает новую кампанию смартфонов для 4,5 миллионной сети абонентов. Начиная с 12 января, в рамках кампании General Mobile 6, абоненты не только смогут приобрести в беспроцентный кредит смартфоны GM 6 с поддержкой 4G, отличающиеся мощной функциональностью, за 35 AZN в месяц, но и получат ряд преимуществ. Так, участники кампании получат в подарок 5 GB интернета каждый месяц, а также бесплатную лицензию на Антивирус Касперского для мобильных устройств сроком на 1 год. Кампания действительна во всех офисах и дилерских магазинах Azercell.




# Компания Bakcell впервые в Азербайджане запускает услугу 4G в метро

Bakcell, с радостью сообщает о запуске суперскоростных услуг мобильного интернета 4G (LTE) на всех станциях метро города Баку.

Пользователи, не желающие прерывать просмотр любимых фильмов, скачивание больших файлов, загрузку «селфи» или использование приложений требующих обработку и передачу большого объема данных, даже находясь при этом в метро, давно и с нетерпением ждали запуска 4G на станциях бакинского метрополитена. Уже сейчас, сеть LTE компании Bakcell доступна на 21 станции метро (за исключением станции Сахиль, закрытой в связи с проведением капитального ремонта). Ультрасовременная технология LTE Advanced, применяемая компанией Bakcell, способна обеспечивать скорость, достигающую 225 Мбит/с. “Мы с гордостью представляем услуги 4G LTE самого высокого качества для абонентов Bakcell, регулярно пользующихся метро. Отныне, наши клиенты смогут получать удовольствие от использования суперскоростного мобильного интернета Bakcell, ожидая прибытия поезда, на платформах метрополитена. Это большое достижение и мы уверены, что наши старания будут высоко оценены пользователями, которые хотят всегда оставаться на связи и иметь высокоскоростной доступ к интернету в любом месте и в любое время», отметил главный исполнительный директор компании Bakcell г-н Николаи Беккерс.




Технология 4G предоставляет абонентам возможность более эффективного использования современной сети LTE Bakcell, включая практически мгновенную загрузку и передачу больших файлов, прослушивание потоковой музыки без буферизации, а также игра в онлайн-игры.

Bakcell будет и дальше приятно удивлять своих абонентов различными инновациями, последними технологиями и удобными и надежными услугами.

# Müraciətlərin azlığı tədrisin keyfiyyətindən xəbər verir

UNEC-də İctimai Nəzarət Şurasının üzvlərinin iştirakı ilə "Açıq qapı" günü keçirilib.
"Açıq qapı"da ilk dəfə olaraq tələbə və valideynlərin müraciətini yalnız UNEC İctimai Nəzarət Şurasının üzvləri dinləyib. Şura üzvləri imtahanla bağlı müraciətləri dinlədikdən sonra onların araşdırılması və həlli istiqamətində müvafiq tədbirlərin görülməsi məqsədilə UNEC-in rektoru, professor Ədalət Muradovla görüşüblər.
Görüşdə universitet rəhbərliyinə "Açıq qapı"ya daxil olan müraciətlər barədə məlumat verilib. Bildirilib ki, müraciətlər əsasən qayıb limiti, köçürmə halları və imtahan nəticələrinin artırılması ilə bağlı olub. Rektor müraciətlərin həlli və obyektiv araşdırılmasını təmin etmək məqsədilə şura üzvlərinin iştirakı ilə müvafiq komissiyanın yaradılmasını təklif edib.
"Açıq qapı" günü ilə bağlı təəssüratlarını bölüşən şura üzvləri ötən illərə nisbətdə bu il müraciətlərin sayının xeyli azaldığına diqqət çəkərək, bunu UNEC-də tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan işlərin müsbət nəticəsi kimi qiymətləndiriblər.
Qeyd edək ki, UNEC İctimai Nəzarət Şurasının üzvləri millət vəkili Hikmət Babaoğlu, əməkdar elm xadimi, professor Şahlar Əsgərov, "XXI Əsr" Təhsil Mərkəzi İB-nin rəhbəri Etibar Əliyev, "Trend" İnformasiya Agentliyinin baş direktorunun müavini Arzu Nağıyev, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları üzrə Birgə Qrupun üzvü Əliməmməd Nuriyev, "Azərbaycan Milli İnkişaf layihəsi" İctimai Birliyinin rəhbəri, İctimai Televiziya və Radio Yayımları Şirkətinin "Gənclər, Elm və Təhsil" departamentinin direktoru Rauf Rəcəbov, "Səs" İnformasiya Agentliyinin icraçı direktoru Vəli Vəliyev, Vətəndaşların əmək hüquqlarını müdafiə liqasının rəhbəri Sahib Məmmədov, Parlament Jurnalistləri Birliyinin sədri, "Modern" Media Qrupunun baş direktoru Elşad Eyvazlı, "Azad Müəllimlər" İctimai Birliyinin sədri Məlahət Murşüdlü və "525-ci qəzet"in müxbiri Sevinc Qarayevadır.



# Azərbaycanda ilk dəfə olaraq PAŞA Bank tərəfindən bankın fərdi bankçılıq filiallarında "Asan İmza" mobil elektron imza məhsulu təqdim edilir

"Asan İmza" elektron məhsulu ölkənin ən innovativ banklarından biri olan PAŞA Bankda əldə edilə bilər.
Mobil elektron imza texnologiyası – "Asan İmza" müştərilərə çeşidli bank xidmət və məhsullarından kompüter və ya mobil telefon vasitəsilə bəhrələnmək imkanı verən elektron şəxsiyyəti təsdiq edən vasitədir. Bank filialına gəlmək üçün sərf edilən vaxta qənaət etməklə yanaşı, bu texnologiya müştərilərin avtorizasiyasının, daha sonra isə bank əməliyyatlarının həyata keçirilməsinin etibarlılığını və təhlükəsizliyini təmin edir. "Asan İmza" xidməti PAŞA Bank müştərilərinə elektron bank xidmətlərindən dünyanın istənilən yerində 24/7 rejimində istifadə imkanı verir.
"Asan İmza" sim-kartını PAŞA Bankın Fərdi bankçılıq filialında, ASAN Xidmət mərkəzlərində, eləcə də istənilən mobil operatorun müştəri xidmətləri mərkəzlərində şəxsiyyət vəsiqəsini təqdim etməklə əldə etmək olar.




# QHT-nin layihəsi uğurla tamamlanmışdır

Ölkəmizdə vətəndaş cəmiyyətinin aktual mövzularda icra etdiyi layihələr ümumi inkişafımıza, o cümlədən vətəndaş cəmiyyətinin formalaşmaına öz töhfəsini verir. QHT sektorunun cəmiyyətdə maarifçilik və təbliğat xarakterli layihələri vətəndaşların, xüsusən də gənclərin fəal həyat mövqeyi tutmasına dəstək verir, onları ölkənin sosial-iqtisadi sahələrdəki nailiyyətləri ilə tanış edir. QHT sektorunun təhsil müəssisələrində tez-tez təşkil etdiyi tədbirlər tələbələrin və pedaqoji kollektivin marağına səbəb olur.
Azərbaycan Respublikası Prezidenti yanında "Gənclər Fondu"nun Qrantı hesabına "Gənclik və maarifçilik" ictimai birliyinin "Gənclərin İT yönümlü peşələrə istiqamətləndirilməsi" layihəsi uğurla başa çatmışdır. Layihə çərçivəsində təhsil müəssisələrində peşəyönümünə həsr edilmiş bir sıra maraqlı tədbirlər həyata keçirilmişdir. Tədbirlərdə məruzə edən layihə meneceri, təhsil eksperti, ADPU-nun dosenti İlham Əhmədov peşəyönümü işinin çoxsahəli və mürəkkəb bir proses olduğunu müəllim və şagirdlərin nəzərinə çatdırmışdır.
Bü gün dünyada rəqəmsal iqtisadiyyatın sürətli inkişafı, ölkəmizdə qeyri- neft sektorunun perspektiv inkişafı peşəyönümü işində İKT yönümlü peşələrə xüsusi önəm verilməsini tələb edir. Sürətlə dəyişən texnoloji inkişaf nəticəsində transformasiya edən əmək bazarının proqnozlaşdırılması getdikcə çətinləşir, bu da peşəyönümü işinin layihələnməsi işini çətinləşdirir. Burada yalnız kompleks yanaşma nəticəsində müəyyən nailiyyətlər qazanmaq mümkündür. Təəssüf ki, son 20 ildə ölkəmizdə peşəyönümü üzrə işlər xeyli zəifləyib.
Peşəyönümü gənclərə peşə seçimində köməklik edir və bu işdə onlara düzgün yol göstərir. Bu zaman onların maraq, meyil və qabiliyyətləri, əmək bazarında olan mövcud tələbat nəzərə alınmalıdır. Düzgün peşə seçimində hər kəs öz yerini və imkanlarını dəqiq bilməlidir.




# Neharada.az hədiyyə yağışını sahiblərinə təqdim etdi

Öz yenilikləri ilə daima göz önündə olan NəHarada.az yenə də öz nailiyyətlərindən qalmır, iləyicilərini sevindirməyə davam edir.
Bildiyimiz kimi, "NeHarada.az" saytı mütəmadi şəkildə "Facebook" sosial şəbəkəsində istifadəçilərə hədiyyələr təqdim edir. "Facebook"da haştaqlarla paylaşım edən sosial şəbəkə iştirakçıları bu təklifləri böyük rəğbətlə qarşılayır.
Bu dəfə isə "NeHarada.az" "Hədiyyə yağışı" adlı kampaniyası ilə diqqətləri öz üzərinə cəlb edib.
30 dekabr tarixində start verilən yarışma 10 yanvar tarixində bitib. 10 şirkət üzrə 22 nəfər qalib seçilib. Qalibləri "NeHarada.az" komandası canlı yayımda, tamamilə şəffaf şəkildə, şərh yazanlar arasından təsadüfi proqramla seçiblər.
Təqdimetmə mərasimi isə yanvar ayının 12-də New Baku Hoteldə baş tutub. Tədbirdə, həmçinin şirkət rəhbərləri, biznesmenlər, mətbuat nümayəndələri də iştirak edib. Bu minvalla "NeHarada.az" tədbirdə iştirak edən hər bir kəsin bayramını təbrik edib. Yeni ili qeyd ediblər və tədbir şirniyyat süfrəsi ilə davam edib.
Layihə rəhbəri Rəşad Əliyev demişdir:
"Kampaniya yağışını etməkdə məqsədimiz insanlara xoş yeni il əhval-ruhiyyəsi təqdim etmək idi. Məhz buna görə də kampaniyaya dekabr ayının 30-da start verdik. İndi isə köhnə yeni il münasibətilə qaliblərimizlə, dostlarımız olan iş adamları ilə, partnyorlarımız ilə yeni il qeyd etmək istədik və həmçinin də qaliblərin hədiyyələrini təqdim etdik. Bu tədbirin keçirilməsində təşkilati dəstəyə görə SMART Hotel Menecment şirkətinin nəzdində fəaliyyət göstərən New Baku Hotel rəhbərliyinə və personalına təşəkkürümüzü bildiririk. Bir daha bütün qaliblərin və hər birinizi yeni il münasibəti ilə təbrik edir, hər kəsə gözəl il arzu edirəm! Qeyd edək istərdim ki, qarşıda belə tədbirlərimiz,kampaniyalarımız gözlənilir. Yeniliklərdən daim xəbərdar olmaq üçün səhifəmizi izləməyi unutmayın!"



# Bitcoin-in qiyməti 10 min dollara düşdü

Bitcoin-in qiyməti Asiya ölkələrinin virtual pul vahidləri üzərindəki nəzarətləri artıracaqları ehtimalı ilə 18,5%-ə düşərək 10 min 69 dolları olub.
Cənubi Koreyanın maliyyə naziri Kim Dong-Yeon bu gün etdiyi açıqlamada ölkəsində virtual pul vahidi ticarətinin qadağan olunmasının hələ də "mümkün" olduğunu söyləyib.
Bundan başqa, Çin rəsmiləri tərəfindən verilən açıqlamada kriptovalyuta ticarəti aparılan platformaların (birjaların) Çində bağlanıla biləcəyi bildirilib.
Dünyada virtual pul vahidlərinə olan tələbatın ən yüksək olduğu 3 ölkədən ikisi olan Çin və Cənubi Koreyada nəzarətin artacağı həyəcanı, Bitcoin daxil digər kriptovalyutaların ucuzlaşmasına səbəb olub.
Ethereum-un dəyəri 24 faiz itki ilə 966 dollara qədər geriləyərkən, Ripple-yin qiyməti də 32 faiz azalma ilə 1,12 dollara düşüb.



Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500